11 sentyabr 2024 №67 (2132) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri Qəzet 1991-ci ilin yanvarından çıxır

## Prezident COP29-a hazırlıqla bağlı görülən işlərlə tanış olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da Bakı Olimpiya Stadionunun ərazisində COP29-a hazırlıqla bağlı görülən işlərlə tanış olub.

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına COP29 məkanının tədbirə hazırlıq vəziyyətinə gətirilməsi barədə məruzə edib.

Eyni zamanda, dövlətimizin başçısına ümumilikdə bu tədbirlə bağlı stadionun 49 hektarlıq perimetrində Mavi Zona üzrə aparılan tikinti işləri, məkanların dizaynı, qonaqlar üçün müxtəlif xidmətlərin təşkili, paytaxtda nəqliyyat əməliyyatlarının hazırlığı, qonaqların yerləşdirilməsi prosesi və digər işlər barədə məlumat verilib. Həmçinin 8 hektar ərazidə qurulan Yaşıl Zona ilə bağlı görülən işlər məruzə edilib.

Qeyd olunub ki, ölkəmizdə COP29-un yüksək səviyyədə keçirilməsi üçün bütün zəruri tədbirlər görülür, lazımi infrastruktur yaradılır.

Prezident İlham Əliyev görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verib.

# Böyük dühanın musiqi işığında

### Beynəlxalq festivalda 10-dan çox ölkədən ifaçı və kollektivlər iştirak edəcək

18 sentyabr Azərbaycanın dahi bəstəkarı, peşəkar musiqi sənətimizin banisi, musiqişünas-alim, pedaqoq, ictimai xadim Üzeyir Hacıbəylinin (1885-1948) anadan olduğu gündür. Ümummilli lider Heydər Əliyevin Üzeyir bəyin 110 illiyi münasibətilə 1995-ci ildə imzaladığı fərmana əsasən, böyük bəstəkarın doğum günü ölkəmizdə Milli Musiqi Günü kimi qeyd olunur. Hər il bu münasibətlə silsilə tədbirlər keçirilir. Bu tədbirlərin ən yaddaqalanı isə, sözsüz ki, 2009-cu ildən ənənəvi təşkil olunan, Üzeyir bəyin adını daşıyan beynəlxalq musiqi festivalıdır.




18-28 sentyabr tarixlərində Üzeyir Hacıbəyli XVI Beynəlxalq Musiqi Festivalı keçiriləcək. Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə gerçəkləşən festivalın, hər zaman olduğu kimi, bu il də iştirakçı coğrafiyası genişdir. Azərbaycanla yanaşı, ABŞ, Rusiya, Almaniya, İspaniya, Avstriya, Xorvatiya, Koreya, Türkiyə, Braziliya, Hindistan və digər ölkələrdən tanınmış musiqiçi və kollektivlər festivala qatılacaqlar.

Festival çərçivəsində Bakı ilə yanaşı, Şuşa, Gəncə və bir sıra şəhərlərdə açıq və qapalı məkanlarda konsertlər, tamaşalar, sərgilər, elmi konfrans və ustad dərsləri təqdim ediləcək.

Festival günlərində M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Mədəniyyət Nazirliyi Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin təqdimatında "Mədəniyyətimiz naxışların izi ilə" adlı sərgi keçiriləcək.

Sentyabrın 18-də saat 10:30-da Azərbaycan Milli Konservatoriyasında Üzeyir Hacıbəylinin xatirəsinə həsr olunmuş tədbir təşkil ediləcək. Milli Musiqi Günü tədbiri saat 12:00-da Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında davam edəcək. Müdafiə Nazirliyinin Əlahiddə Nümunəvi Hərbi Orkestri və Azərbaycan Dövlət Xor Kapellası çıxış edəcək. Üzeyir Hacıbəylinin Ev-Muzeyində də (saat 14:00) dahi bəstəkara həsr edilmiş ədəbi-musiqili tədbir olacaq.

Axşam saat 19:00-da Azərbaycan Dövlət Akademik Filarmoniyasında Üzeyir Hacıbəyli XVI Beynəlxalq Musiqi Festivalının təntənəli açılış mərasimi keçiriləcək.

**_davamı səh. 2-də_**

## Sankt-Peterburqda BRICS Mədəniyyət Festivalı

### Azərbaycan da təmsil olunacaq

Məlum olduğu kimi, 22–24 oktyabr tarixlərində Kazan şəhərində (Tatarıstan, RF) XVI BRICS sammiti keçiriləcək. Sammit ərəfəsində, Rusiyanın BRICS-ə sədrliyi çərçivəsində bir sıra mədəniyyət tədbirləri də təşkil edilir. İyun ayında Moskvada keçirilən BRICS+ ölkələri teatr məktəblərinin festivalı, avqustda Tatarıstan paytaxtında təşkil olunan caz festivalı və s. bu qəbildən idi.




Sentyabrın 12-də isə Sankt-Peterburq şəhərində BRICS Mədəniyyət Festivalı keçiriləcək. Tədbirdə Azərbaycan da təmsil olunacaq.

Qeyd edək ki, 12-14 sentyabr tarixlərində Sankt-Peterburq həmçinin ənənəvi Beynəlxalq Mədəniyyət Forumuna da ev sahibliyi edəcək.

Xatırladaq ki, BRICS onu təsis edən ilk beş ölkənin – Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrika Respublikasının ingilis dilində baş hərflərinə (Brazil, Russia, India, China, South Africa) uyğun olaraq belə adlanır. 2009-cu ildə əsası qoyulan formata 2023-cü ildə Misir, İran, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, Efiopiya və Argentina da qoşulub. Hazırda təşkilatın 11 üzvü var.

Azərbaycan da BRICS-ə üzv olmaq üçün ərizə verib. Gözlənilir ki, ölkəmizin müraciətinə Kazan sammitində baxılacaq.

# Müxtəlif ölkələrdə yaşayan azərbaycanlı alimlər vətəndə bir araya gəliblər

Sentyabrın 9-da Bakıda Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumu işə başlayıb. Diasporla İş üzrə Dövlət Komitəsinin, Elm və Təhsil Nazirliyinin dəstəyi, Dünya Azərbaycanlı Alimlər Dərnəyinin təşkilatçılığı ilə "Gülüstan" Sarayında keçirilən tədbirdə 23 ölkədən 80-dən çox azərbaycanlı alim, ümumilikdə 200-ə yaxın elm xadimi iştirak edir.




Forumun açılış toplantısında Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Prezident İlham Əliyevin iştirakçılara müraciətini oxuyub.

"Xaricdə yaşayan həmvətənlərimizin sıralarında elm xadimlərinin geniş yer tutması Azərbaycan diasporunun inkişafına böyük imkanlar yaradır. Diasporumuzun fəaliyyətinin sistemliliyinin təmin edilməsi məqsədilə elm sahəsində çalışan soydaşlarımızla daha sıx münasibətlər qurulması, milli maraqlarımıza xidmət göstərən müxtəlif proqram və layihələrdə onların yaxından iştirakının dəstəklənməsi istiqamətində ötən müddət ərzində təqdirəlayiq işlər görülmüşdür", – deyə müraciətdə qeyd olunur.

Dövlətimizin başçısı əmin olduğunu bildirib ki, forum dünyanın müxtəlif ölkələrində məskunlaşmış azərbaycanlı alimlərin şəbəkələşməsi, qazanılan nailiyyətlərdən yararlanmaqla ölkəmizin qlobal hədəflərə sürətlə yaxınlaşması, habelə Azərbaycan elminin dünya elm məkanına inteqrasiyası baxımından səmərəli olacaq, həmçinin işğaldan azad edilmiş tarixi ərazilərimizin bərpası prosesinə alimlərimizin öz bilik və təcrübələri ilə töhfə verə bilmələri üçün faydalı əməkdaşlıq yollarını müəyyən edəcək.

**_davamı səh. 3-də_**

## V Dünya Köçəri Oyunları – idmandan mədəni irsə



Xəbər verdiyimiz kimi, 8-13 sentyabr tarixlərində Qazaxıstanın paytaxtı Astanada V Dünya Köçəri Oyunları keçirilir.

Oyunların açılış mərasimində gənclər və idman naziri Fərid Qayıbovun rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti də iştirak edib. Nazir səfər çərçivəsində Dünya Etnosport Federasiyasının prezidenti Bilal Ərdoğan, Rusiya Federasiyasının idman naziri Mixail Deqtyarev və Qazaxıstanın turizm və idman naziri Yerbol Mirzabosinov ilə görüşlər keçirib.

89 ölkənin təmsil olunduğu, idman, incəsənət, ənənəvi xalq oyunlarının bir arada təqdim edildiyi yarışlarda Azərbaycandan 8 idman növü (qazaq güləşi, manqala, aba, koreş, mas-reslinq, kuraş, alış, ənənəvi oxatma) üzrə 54 idmançı iştirak edir.

"Kazanat" yarış meydançası yaxınlığında keçirilən tədbirlə bağlı təxminən 10 hektar ərazidə "Köçərilər dünyası" etnoaulu (etnokənd) qurulub. Etnoaulda mərkəzi meydan, xalq musiqisi üçün çadır, açıq səma altında "Köçəri sivilizasiyalar muzeyi", idman tədbirləri, milli mətbəx, əsas səhnə və s. məkanlar var.

V Dünya Köçəri Oyunlarında ümumilikdə 21 idman növü üzrə yarışlar keçirilir.

Xatırladaq ki, Dünya Köçəri Oyunları ilk dəfə Qırğızıstanın təşəbbüsü ilə 2014-cü ildə keçirilib. Qırğızıstan 2016-cı və 2018-ci illərdə (Çolpon-Ata şəhəri) növbəti Dünya Köçəri Oyunlarına ev sahibliyi edib. Bundan sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Dünya Köçəri Oyunlarının təşkilati coğrafiyasını genişləndirməyə və bu tədbiri qəbul etməyə hazır olduqlarını bildirib. 2020-ci ilə nəzərdə tutulan, lakin pandemiya səbəbindən ertələnən IV Dünya Köçəri Oyunları 2022-ci ildə Bursanın İznik bölgəsində təşkil olunub.

**_davamı səh. 2-də_**

## "Teatrda tənəzzül hələ davam edir"



İsrafil İsrafilov: "Azərbaycan teatrı yaradıcılıq, sənət axtarışları baxımından tənəzzül dövrünü yaşayır. Bu tənəzzül 80-ci illərdən başladı, teatr sənətimiz səmtini itirdi.

Bunun bir neçə səbəbi var – ictimai-siyasi quruluşda başlayan sapınmalar, görkəmli teatr xadimlərinin dünyasını dəyişməsi, aktyorlar arasında nəsil dəyişilməsinə hazırlıqlı olmamağımız, əvvəlki aktyorları əvəz edə biləcək yeni aktyor nəslinin yetişdirilməməsi...".

**_səh. 5_**

## "Yaz təranələri" yenə beynəlxalq sərgidə

Əməkdar rəssam Mehriban Əfəndi ABŞ-də keçirilən beynəlxalq sərgidə növbəti dəfə ölkəmizi təmsil edir. O, müxtəlif ölkələrdən 17 sürrealist rəssam arasından seçilərək Vaşinqtondakı "Shotgun Studio" incəsənət qalereyasında təşkil olunan sərgiyə qatılıb.



"Beynəlxalq sürrealizm bu gün" layihəsi çərçivəsində keçirilən sərgidə azərbaycanlı rəssamın "Yaz təranələri" əsəri nümayiş olunur. Xatırladaq ki, rəssam 2015-ci ildə də eyniadlı əsəri ilə ABŞ-də sürrealizm sərgisində iştirak etmişdi.

Sentyabrın 6-dan oktyabrın 10-dək davam edəcək sərginin baş kuratorları amerikalı rəssam Roch Fautch və Portuqaliyadan rəssam Santiaqo Ribeirodur. Sərgidə heykəl, instalyasiya və müasir sürreal sənət nümunələri ilə yanaşı, yaradıcı performanslar, şou-proqramlar təqdim olunur.

Qeyd edək ki, Mehriban Əfəndi ilk dəfə "Beynəlxalq sürrealizm bu gün" hərəkatına 2010-cu ildə portuqaliyalı rəssam Santiaqo Riberonun dəvəti və Bissaya Barreto Fondunun maliyyələşdirdiyi layihə çərçivəsində qatılıb. Rəssamın əsərləri Portuqaliya, ABŞ, Hollandiya, Bolqarıstan, Slovakiya, İngiltərə, Monteneqro və digər ölkələrdə nümayiş etdirilib.



### Bülbülün evində Mobil Əhmədovun xatirəsi anılıb

**_səh. 3_**



### "Nənə qızlar" 32 ildən sonra doğma yurdda

**_səh. 4_**

# Nəbi Xəzrinin 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2024-cü ilin dekabr ayında Azərbaycanın Xalq şairi, ictimai xadim, Dövlət mükafatları laureatı Nəbi Xəzrinin (Nəbi Ələkbər oğlu Babayevin) anadan olmasının 100 ili tamam olur.



Nəbi Xəzri Azərbaycan ədəbiyyatını yeni poetik obrazlarla zənginləşdirərək onun inkişafında özünəməxsus rol oynamış görkəmli söz ustasıdır. Çoxcəhətli yaradıcılığı boyu sənətkar insanın mənəvi aləminin saflığını geniş lirik-epik lövhələrlə tərənnüm etmiş və daim ülvi ideallarla yaşamağa çağırmışdır. Azərbaycan xalqının tarixi-mədəni yaddaşının bir çox səhifələri onun yüksək vətəndaşlıq qayəsindən yoğrulan əsərlərində öz bədii təcəssümünü tapmışdır. Təbiət gözəlliklərinə vurğunluq və doğma torpağa bağlılıq hissləri aşılayan Nəbi Xəzri poeziyası dərin lirizmi, ifadə tərzi və həyata fəlsəfi münasibəti ilə seçiyyələnir. Nəbi Xəzrinin dram əsərləri Azərbaycan teatrlarında uğurla tamaşaya qoyulmuş və müəllifinə şöhrət qazandırmışdır. Nəbi Xəzri eyni zamanda ictimai xadim kimi səmərəli fəaliyyət göstərmiş, Azərbaycan mədəniyyəti və incəsənətinin xarici ölkələrdə təbliği istiqamətində təqdirəlayiq işlər görmüşdür.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan ədəbiyyatının inkişafına töhfələr vermiş Xalq şairi Nəbi Xəzrinin 100 illik yubileyinin qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

**1.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Nəbi Xəzrinin 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 9 sentyabr 2024-cü il**

# Memar Nəsrulla Kəngərlinin yaşadığı binaya xatirə lövhəsi vurulacaq



Azərbaycan Respublikasının Nazirlər Kabineti XX əsr Azərbaycan memarlığının görkəmli nümayəndələrindən biri, əməkdar inşaatçı, SSRİ Dövlət mükafatı laureatı Nəsrulla Yaqub oğlu Kəngərlinin xatirəsini əbədiləşdirmək məqsədilə qərar qəbul edib.

Baş nazir Əli Əsədovun imzaladığı 5 sentyabr 2024-cü il tarixli, 394 №-li qərara əsasən, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə və Bakı Şəhər İcra Hakimiyyətinə Nəsrulla Yaqub oğlu Kəngərlinin Bakı şəhərində yaşadığı binaya (İnşaatçılar prospekti ilə Bəsti Bağırova küçəsinin kəsişməsində yerləşən) xatirə lövhəsinin vurulmasını təmin etmək tapşırılıb.

# Daha bir neçə ali məktəb publik hüquqi şəxs statusunda fəaliyyət göstərəcək

Azərbaycan Rəssamlıq Akademiyası Elm və Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olan Azərbaycan Rəssamlıq Akademiyasına çevrilmə yolu ilə yenidən təşkil edilir.

Baş nazir Əli Əsədov bununla bağlı Nazirlər Kabinetinin qərarını imzalayıb. Qərarla "Azərbaycan Rəssamlıq Akademiyasının Nizamnaməsi" təsdiq edilib.

Nazirlər Kabinetinin müvafiq qərarları ilə Bakı Slavyan Universiteti və Azərbaycan Memarlıq və İnşaat Universiteti də Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusunda fəaliyyət göstərəcək.

Bundan əlavə, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası, Sumqayıt Dövlət Universiteti, Gəncə Dövlət Universiteti, Azərbaycan Texnologiya Universiteti, Naxçıvan Müəllimlər İnstitutu və Lənkəran Dövlət Universiteti də publik hüquqi şəxs statusunda fəaliyyət göstərəcək.

# Nyu-Yorkda Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin toplantısı keçiriləcək

Sentyabrın 25-26-da Nyu-Yorkda, BMT-nin Baş Assambleyasının 79-cu sessiyası çərçivəsində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin növbəti toplantısı keçiriləcək.

Bu barədə Nizami Gəncəvi Beynəlxalq Mərkəzindən məlumat verilib.

Qeyd olunur ki, "Etimad və qlobal idarəetmə, iqlim tədbirləri: BMT-nin gələcək sammiti ilə COP29-un əlaqələndirilməsi" mövzusuna həsr olunan toplantıya İngiltərə, Latviya, Türkiyə, Bolqarıstan, Belçika, Avstriya, Norveç, İsrail, Finlandiya, Xorvatiya, Sloveniya, Slovakiyanın sabiq liderləri, Dünya Səhiyyə Təşkilatı, BMT-nin bir sıra təşkilatları, Baş Assambleyanın 67, 72, 73, 75, 77, 78-ci sessiyalarının prezidentləri qatılacaq.

Toplantı çərçivəsində "Nizami Gəncəvi Beynəlxalq Mükafatı" yeni sahiblərinə təqdim olunacaq.

# Türkmənistan da Dostluq Oyunları keçirmək istəyir

BMT Baş Assambleyasının 78-ci sessiyasında Türkmənistanın təşəbbüsü və təşkilata üzv dövlətlərin dəstəyi ilə "Birləşmiş Millətlər Təşkilatının Dostluq Oyunları" adlı qətnamə qəbul edilib.

Türkmənistan mediası xəbər verir ki, qətnaməyə ümumilikdə 87 ölkə səs verib.

"BMT Baş Assambleyası Türkmənistanda idmanın, bədən tərbiyəsi və sağlamlıq hərəkatının inkişafı, bu sahədə dövlətlər və xalqlar arasında əməkdaşlığın inkişafı istiqamətində görülən işləri alqışlayıb və dəstəkləyib", – deyə məlumatda qeyd olunur.

# Azərbaycan və Qazaxıstan prezidentləri ikitərəfli əlaqələri müzakirə ediblər

## Qazaxıstanda Azərbaycan Mədəniyyəti Günlərinin keçiriləcəyi məmnunluqla qeyd olunub

Sentyabrın 9-da Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.



Qazaxıstan Prezidenti, ilk növbədə, ölkəmizdə parlament seçkilərinin uğurla keçirilməsi və Yeni Azərbaycan Partiyasının inamlı qələbəsi münasibətilə dövlətimizin başçısına təbrikləri çatdırıb.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirib.

Kasım-Jomart Tokayev Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşündə (avqustun 9-da Astanada keçirilib – red.) Azərbaycan Respublikası Prezidentinin iştirakını xüsusi qeyd edib.

Prezident İlham Əliyev Məşvərət görüşünə dəvətə görə minnətdarlığını bildirib.

Dövlətimizin başçısı hazırda Qazaxıstanda keçirilən V Dünya Köçəri Oyunlarının uğurlu təşkili münasibətilə təbriklərini çatdırıb. Qazaxıstan Prezidenti, öz növbəsində, Azərbaycan idmançılarının Oyunlarda fəal iştirak etdiklərini vurğulayıb.

Bu ay Qazaxıstanda Azərbaycan Mədəniyyəti Günlərinin keçiriləcəyi də məmnunluqla qeyd olunub.

Tərəflər Azərbaycan və Qazaxıstan arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını vurğulayıblar.

Qazaxıstan Prezidenti Astananın Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqların aparılması üçün platforma rolunu oynamağa hazır olduğunu bildirib.

Dövlətimizin başçısı Azərbaycan üçün Astanada iki ölkə arasında bu danışıqların aparılması təklifinin məqbul olduğunu qeyd edib.

Telefon söhbəti zamanı ikitərəfli gündəliyə aid məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

# Böyük dühanın musiqi işığında

## Beynəlxalq festivalda 10-dan çox ölkədən ifaçı və kollektivlər iştirak edəcək

əvvəli səh. 1-də

Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri (bədii rəhbər və baş dirijor: Əməkdar artist Fuad İbrahimov) və Azərbaycan Dövlət Xor Kapellası (bədii rəhbər və baş dirijor: Xalq artisti Gülbacı İmanova) çıxış edəcək. Gecədə solistlər Xalq artisti Ülviyyə Hacıbəyova (piano), Əməkdar artistlər Ramil Qasımov (tenor) İnarə Babayeva (soprano) və beynəlxalq müsabiqələr laureatı Mahir Tağızadə (bariton) ifalarını təqdim edəcəklər.

Rəngarəng proqramı olan festivalın, demək olar ki, hər günü maraqlı tədbirlərlə yadda qalacaq. Üzeyir bəyin ata yurdu Şuşada da musiqisevərlərə əsl bayram havası yaşadılacaq. Sentyabrın 19-da saat 15:00-da dahi musiqi xadiminin heykəli qarşısında mədəniyyət paytaxtımızın daha bir sənətkar yetirməsi, görkəmli bəstəkar, dirijor və pedaqoq, Dövlət mükafatı laureatı, Xalq artisti Süleyman Ələsgərovun (1924-2000)




100 illik yubileyinə həsr olunmuş konsert keçiriləcək. Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri (bədii rəhbər və baş dirijor: Xalq artisti Ağaverdi Paşayev) sənətsevərlərin könlünü oxşayacaq.

Sentyabrın 21-də saat 16:00-da Şuşada açıq havada Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının təqdimatında Ü.Hacıbəylinin "Leyli və Məcnun" operası nümayiş etdiriləcək.

Sentyabrın 23-də saat 19:00-da Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında görkəmli bəstəkar, Xalq artisti Ramiz Mirişlinin (1934-2015) 90 illik yubileyinə həsr olunmuş konsert keçiriləcək.

Həmin gün Bakı Kitab Mərkəzində tanınmış pianoçu, pedaqoq, Əməkdar incəsənət xadimi Elmira Səfərovanın (1934-1997) 90 illiyinə həsr olunmuş xatirə axşamı təşkil ediləcək.

Festival çərçivəsində həmçinin bütün ölkə üzrə Heydər Əliyev mərkəzləri və kinoteatrlarda Üzeyir bəyin əsərləri əsasında lentə alınmış bədii filmlərin nümayişi, xarici ölkələrdə fəaliyyət göstərən mədəniyyət mərkəzlərində müxtəlif tədbirlərin təşkili nəzərdə tutulur.

# V Dünya Köçəri Oyunları – idmandan mədəni irsə

əvvəli səh. 1-də

Qazaxıstanın ev sahibliyi etdiyi V Dünya Köçəri Oyunlarının proqramı çox zəngindir. Oyunlarda təkcə idman yarışları deyil, eyni zamanda dünyanın 5 qitəsindən gələn sənətkarlar, idmançılar, mədəniyyət və incəsənət xadimləri də öz bilik və bacarıqlarını, məharətlərini nümayiş etdirirlər.

Oyunlar çərçivəsində 10-11 sentyabr tarixlərində "Köçərilər: tarix, bilgi və dərslər" adlı beynəlxalq elmi konfrans da keçirilir. Qazaxıstan Respublikasının Milli Muzeyində təşkil olunan konfransda Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Belarus, Çin, Böyük Britaniya, Cənubi Koreya, ABŞ və Fransadan 70-dən çox alim və mütəxəssis iştirak edir.

"Tarix və mədəniyyət", "Türklərin ümumi irsi", "Mərkəzi Asiya köçərilərinin qidaları", "Ənənəvi köçəri musiqiləri", "Böyük Çölün qadınları" və digər maraqlı mövzular ətrafında mühazirələr dinlənilir.

Konfransda çıxış edən Türk Mədəniyyəti və İrsi Fondunun (Bakıda yerləşir) prezidenti Aktotı Raimkulova rəhbərlik etdiyi qurumun fəaliyyətindən söz açıb, ümumi türk mədəniyyətinin daha da inkişaf etməsi üçün birlikdə görəcəkləri işlər barədə fikirlərini bölüşüb.

Amerikalı alim, 3D İnstitutunun direktoru Mark Hall Mərkəzi Asiyadakı köçəri xalqların mədəniyyətinin Amerikada yaşayan



xalqların mədəniyyətinə oxşar olduğunu, çöl mədəniyyətinə sahib insanların azadlıq ruhunun bir-birinə yaxınlığını söyləyib.

Azərbaycanın qocaman diplomatı, tarix elmləri doktoru Həsən Həsənov "Qədim Azərbaycanın dövlət quruluşu modeli Türk sivilizasiyasının əsasıdır" mövzulu məruzəsində Azərbaycanda bərqərar olan ilk dövlət quruluşundan, Oğuz xanın 6 oğlunun yaratdığı dövlətçilik modelindən bəhs edib.

Köçəri Oyunlarının əhəmiyyətini qeyd edən alimlər belə tədbirləri bütün insanlığa, bəşəriyyətə yeni sevgilər və həyat eşqi ötürməyin bir yolu olduğunu bildiriblər.

# Ermənistan Konstitusiyası sülhə əsas əngəldir

## Azərbaycan XİN Paşinyanın son fikirlərinə münasibət bildirib

Azərbaycanın Xarici İşlər Nazirliyi (XİN) Ermənistanın Baş naziri Nikol Paşinyanın sentyabrın 10-da "Yerevan Dialoqu" adlı forumda çıxışı zamanı söylədiyi fikirlərə münasibət bildirib.



XİN-in mətbuat katibi Ayxan Hacızadənin bununla bağlı şərhində bildirilir ki, Ermənistan rəsmilərinin "sülh sazişi" layihəsini razılaşdırılmamış müddəalar çıxarılmaqla imzalanması çağırışı, bununla ikitərəfli münasibətlərdə mövcud problemlərin həllini növbəti mərhələyə saxlamaq cəhdləri qəbuledilməzdir.

"Bir daha xatırladırıq ki, Ermənistan tərəfinin "sülh sazişi" layihəsini hansı formada imzalamaq niyyətindən asılı olmayaraq, Azərbaycanla Ermənistan arasında real və davamlı sülh müqaviləsinin imzalanması üçün əsas şərt, başda "Ermənistan və Dağlıq Qarabağın birləşməsi"nə çağıran Ermənistanın Müstəqillik Aktına açıq şəkildə istinad edən Ermənistan Konstitusiyası olmaqla, bu ölkənin çoxsaylı hüquqi və siyasi sənədlərində təsbit edilmiş Azərbaycana qarşı davam edən ərazi iddialarına son qoyulmasıdır.

Quya Azərbaycanın Konstitusiya aktında Ermənistana qarşı ərazi iddialarının olması barədə iddialara gəldikdə bir daha qeyd edək ki, Azərbaycan Konstitusiyası ilə Ermənistan Konstitusiyası arasında paralellik və bərabərlik yaratmaq cəhdi heç bir nəticə verməyəcək. Ermənistan Konstitusiyasından fərqli olaraq, Azərbaycan Konstitusiyasında istinad olunan 1991-ci il Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı və 1918-ci il İstiqlal Bəyannaməsində Ermənistana qarşı heç bir ərazi iddiası mövcud deyil.

Ermənistan tərəfinin sülh müqaviləsi layihəsində mövcud olan "heç bir tərəf sülh sazişi çərçivəsində öz öhdəliklərini yerinə yetirməməsi ilə əlaqədar öz daxili qanunvericiliyinə istinad edə bilməz" müddəasını qeyd edərək, bu ölkənin Konstitusiyasında mövcud olan ərazi iddiasının zərərsiz olduğunu bildirməsi də tamamilə əsassızdır. Bir daha qeyd edirik ki, heç bir beynəlxalq sazişin Konstitusiyadan üstün olmadığı hər kəsə yaxşı məlum olan faktdır", – deyə XİN sözçüsünün şərhində vurğulanır.

Qeyd olunur ki, kommunikasiyaların açılması məsələsində də Ermənistan Baş naziri növbəti dəfə üzərinə götürdüyü öhdəlikləri yanlış şərh edib. Üçtərəfli bəyanatın (10 noyabr 2020-ci il – red.) 9-cu bəndində Ermənistanın hansı öhdəliklərinin olduğu, nəqliyyat əlaqəsi üzrə nəzarət necə təşkil olunacağı açıq-aydın yazılıb.

Bundan əlavə, üçtərəfli bəyanat imzalanandan sonra öhdəliklərinə zidd olaraq 2023-cü ilin sentyabr ayınadək Azərbaycan ərazilərində hərbi fəaliyyətini davam etdirən və öz silahlı qüvvələrini Azərbaycan ərazilərindən çıxarmayan Ermənistan tərəfinin guya qaçqın və məcburi köçkünlərin geri qayıtmasına maneçilik törədildiyini, hərbi əsirlərin qaytarılmadığını iddia etməsi reallıqların təhrif olunmasıdır. 2023-cü il antiterror tədbirlərindən sonra erməni əsilli şəxslərin könüllü əsasda Azərbaycanı tərk edərək Ermənistana və digər ölkələrə köçməsinin etnik təmizləmə kimi qələmə verilməsi də növbəti böhtandır.

"Hərbi əsirlərin qaytarılması məsələsinə gəldikdə, hərbi cinayətkarların və separatçı xunta rejiminin nümayəndələrinin azad edilməsi barədə Azərbaycan hər hansı bir öhdəliyə malik deyil. Azərbaycan indiyə qədər humanizm prinsipinə sadiq qalaraq hərbi əsirlərin hər birini Ermənistana təhvil verib. Müxtəlif platformalardan istifadə etməklə ölkəmizə qarşı aqressiv böhtan xarakterli ritorikanı davam etdirən Ermənistan tərəfini sülh perspektivlərinə xələl gətirən açıqlamalardan əl çəkməyə çağırırıq", – deyə XİN sözçüsü bəyan edib.

# Müxtəlif ölkələrdə yaşayan azərbaycanlı alimlər vətəndə bir araya gəliblər

*əvvəli səh. 1-də*

Bu gün Azərbaycanın tarixində əlamətdar hadisələrdən biridir. Dünyanın müxtəlif yerlərində yaşayan azərbaycanlı alimlərin iştirakı ilə keçirilən forum Azərbaycan Respublikasının gücünün və birliyinin ifadəsidir.



Bu fikirləri Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru akademik Rafael Hüseynov forumun açılış mərasimində deyib.

Akademik qeyd edib ki, Vətən müharibəsində Zəfərimiz dünyanın müxtəlif yerlərinə səpələnmiş azərbaycanlıları bir-birinə daha da yaxınlaşdırdı. Dünyanın 51 ölkəsində 561 diaspor təşkilatımız var. Təşkilatlanma çox mühüm addımdır. Dünyanın müxtəlif yerlərində yaşayan, fəaliyyət göstərən azərbaycanlı alimlərin birliyi də ölkəmizin zəka gücünün artması deməkdir.

***

Azərbaycan elminin, təhsilinin nüfuzu daha da artırılmalıdır. Bunun üçün biz alimlərimizdən təkliflər gözləyirik. Təklifləri olanlara isə maliyyə dəstəyi verməyə hazırıq.

Bunu isə forumda çıxışı zamanı ADA Universitetinin rektoru professor Hafiz Paşayev söyləyib.

O bildirib ki, Azərbaycan elminin inkişafında alimlərin üzərinə böyük rol düşür: "Ölkəmizdə müasir tələblərə cavab verən alimlər yetişdirilməlidir. Xüsusilə dəqiq elmlərlə bağlı mənim narahatlığım var".

***

Əməkdar elm xadimi, Münxen Texniki Universitetinin (Almaniya) professoru, Humboldt mükafatı alan ilk azərbaycanlı alim, fizika-riyaziyyat elmləri doktoru Məsud Əfəndiyev qeyd edib ki, forumun təşkilində məqsəd Azərbaycan elminin inkişafına töhfə vermək, peşəkar və gənc alimlər arasında körpü yaratmaqdır.

Alim Azərbaycanın beynəlxalq nüfuzunun daha da gücləndirilməsi, elmimizin yüksək səviyyədə inkişaf etdirilməsi üçün səylərin birləşdirilməsinin vacibliyini vurğulayıb. "Xalqımızın inkişafına əlimizdən gələn qədər töhfə verməyə hazırıq", – deyə o qeyd edib.

***

Forumda çıxış edən elm və təhsil naziri Emin Əmrullayev bildirib ki, Azərbaycan elmi ciddi bir transformasiyadan keçib. Qeyd edib ki, bu gün Azərbaycan elminin göstəriciləri kifayət qədər ürəkaçan deyil: "Bunun obyektiv və subyektiv səbəbləri var. Biz bütün elmi məsələlər ilə eyni anda məşğul ola bilmərik. Bunu da müəyyən etmək üçün alimlərin fikri önəmlidir. Buna görə də bu forumun işi sözügedən mövzuda çox faydalı olacaq. Elə peşəkar alimlər var ki, cəmiyyət olaraq biz onların adlarını bilmirik. Ən vacib məqam Azərbaycandan kənarda yaşayan alimlərimizlə inteqrasiya məsələsidir".

Elm və Təhsil Nazirliyi tərəfindən göstəriləcək dəstək və imkanlar barədə danışan Emin Əmrullayev bildirib ki, elm və təhsil sahəsində müəyyən problemlər var. Lakin son on il ərzində bu sahədə xeyli müsbət işlər görülüb. Onun sözlərinə görə, vacib məqamlardan biri də çərçivənin müəyyən edilməsidir: "Yəni biz Azərbaycan elmini harada görürük və harada görə bilərik? Gözləntim dünyada yaşayan azərbaycanlı alimlərimizin verəcəkləri töhfə ilə bağlıdır".




Azərbaycan elminin inkişafı üçün prioritetlərin müəyyən edilməsinin vacibliyini vurğulayan E.Əmrullayev deyib: "Kifayət qədər ictimai müzakirələr var. Dövlət tərəfindən təhsillə bağlı müxtəlif proqramlar həyata keçirilir. Proqram çərçivəsində təhsil alan gənclərimizin ölkəyə qayıtması və öz biliklərini paylaşması vacibdir".

***

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov qeyd edib ki, dünyanın müxtəlif yerlərində fəaliyyət göstərən azərbaycanlı alimlərin Bakıda toplanması mühüm hadisədir. "Məqsədimiz birliyə nail olmaq, həmrəyliyimizi daha da gücləndirməkdir. Dövlət Komitəsinin fəaliyyəti həm də işğaldan azad edilən Qarabağda aparılan işlərlə bağlıdır. Qarabağ Universitetində dünyaşöhrətli azərbaycanlı alimlərin çalışması elmimizə töhfə olardı", – deyə o əlavə edib.

Fuad Muradov xaricdə təhsil alan azərbaycanlı tələbələrlə bağlı da fikirlərini bildirib və xaricdə yaşayan soydaşlarımız üçün dərsliyin tezliklə çap olunacağını deyib.

***

Açılış toplantısından sonra forum öz işini "Azərbaycanda elm və ali təhsilin beynəlmiləlləşməsində alimlərin rolu" mövzusunda panel müzakirələrlə davam etdirib. Münxen Texniki Universitetinin professoru Məsud Əfəndiyevin moderatorluğu ilə aparılan müzakirələrdə çıxış edənlər qlobal akademik şəbəkənin qurulması ilə bağlı mülahizələrini səsləndirib, təkliflərini bildiriblər.

Qeyd edək ki, forumun məqsədi müxtəlif ölkələrdə yaşayan azərbaycanlı alimləri bir araya gətirmək, yerli alimlərlə görüşdürmək, bilik və təcrübə mübadiləsi aparmaq, dünya azərbaycanlı elm adamlarının şəbəkələşməsinə töhfə verməkdir. Forumun üçgünlük proqramına iştirakçıların Şuşa və Xankəndi şəhərlərinə səfərləri, o cümlədən Qarabağ Universitetinin müəllim heyəti ilə görüşü də daxildir.

Forum sentyabrın 11-də başa çatacaq.

# Türkiyənin "Lagom" simli kvarteti ilk dəfə Bakı səhnəsində

Sentyabrın 9-da Beynəlxalq Muğam Mərkəzində Türkiyənin "Lagom" simli kvartetinin konserti təqdim olundu.

Tanınmış musiqi qrupu ölkəmizə Azərbaycan Bəstəkarlar İttifaqının (ABİ) dəvəti ilə gəlib.

Kvartetin Bakı səhnəsində ilk konsertinin tamaşaçıları arasında mədəniyyət nazirinin müavini Murad Hüseynov, nazirin müşaviri Cahangir Səlimxanov, Bəstəkarlar İttifaqının sədri Xalq artisti Firəngiz Əlizadə, tanınmış mədəniyyət xadimləri var idi.

Kvartetin iki üzvü – türkiyəli musiqiçilər Semih Tercan (viola) və Yaşar Köroğlu (violonçel), digər iki üzvü – soydaşımız, Türkiyənin Bilkənt Konservatoriyasının professoru Toğrul Qəniyevin tələbəsi olmuş Hüseynəli Hüseynəliyev (1-ci violin) və qırğızıstanlı ifaçı Aliya Okeevadır (2-ci violin).



Hüseynəli Hüseynəliyev tamaşaçıları salamlayaraq kvartet haqqında qısa məlumat verdi. Bildirdi ki, kvartetin repertuarında dünya musiqisinin məşhur nümunələri yer alır.

Gecədə kollektiv proqram üzrə F.Əlizadənin "Muğamsayağı", tanınmış türk bəstəkarlar – Amerikada yaşayan Kamran İncenin "Curve" və Fazıl Sayın "Simli kvartet. Op. 29" əsərləri səsləndirdi.

H.Hüseynəliyev konsert boyunca proqramda yer alan əsərlər haqqında məlumatı tamaşaçılarla bölüşdü.

Musiqiçilər eyni zamanda kollektivi Bakıya dəvət etmiş professor Firəngiz Əlizadəyə təşəkkür olaraq bəstəkarın "Rəqs" əsərini ifa etdilər.

Bütün musiqi nömrələri alqışlarla qarşılandı.

Qeyd edək ki, türkcəyə İsveç dilindən keçən "lagom" sözü nə az-nə çox, tam miqdarında mənasını verir. Kvartet Bilkənt Universiteti Konservatoriyasından (Ankara) məzun olan gənc musiqiçilər tərəfindən təşkil olunub. Repertuarında dünya musiqisinin məşhur nümunələri yer alır. "Lagom" 2023-cü ildə Ankarada verdiyi konsertdə Firəngiz Əlizadənin "Muğamsayağı" əsərini ilk dəfə ifa edib.

**Lalə**

# "Beynəlxalq multikulturalizm jurnalı"nın yeni sayı

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) "International Journal of Multiculturalism" ("Beynəlxalq multikulturalizm jurnalı") adlı beynəlxalq elmi jurnalının 2024-cü ildə birinci sayı işıq üzü görüb.

BBMM-in mətbuat xidmətindən bildirilib ki, ildə iki dəfə ingilis dilində nəşr olunan jurnalın saytı da (http://bimc-ijm.com/index.aspx) fəaliyyət göstərir.

Jurnalda BBMM-in icraçı direktoru Rəvan Həsənovun "Müxtəlifliyin qorunması: 2024-cü ildə İslamofobiya ilə mübarizə" mövzusunda beynəlxalq konfrans haqda geniş məqaləsi təqdim olunub. Həmçinin əcnəbi və yerli tədqiqatçı-alimlərin "Ali təhsildə multikulturallıq və müxtəliflik şüuru", "Xarici siyasətin transformasiyası: Multikultural dünyada qadınlar və yumşaq güc", "Digər"in məngənəsindəki şəxsiyyət mübarizəsi: İsrail-Fələstin münaqişəsi", "Carl Wilkens və Ruanda: Öyrənmə və böyümə", "Xaos nəzəriyyəsi: Mürəkkəb fəaliyyətə yanaşmada yeni bir perspektiv, Mədəniyyət, sivilizasiya və mədəni müxtəliflik" mövzularında məqalələri yer alıb.

# Ölkəmiz III Beynəlxalq Antalya Yörük Türkmən Festivalında təmsil olunacaq

Sentyabrın 13-dən 15-dək Türkiyədə III Beynəlxalq Antalya Yörük Türkmən Festivalı keçiriləcək. Türkiyədəki səfirliyimizin nəzdində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) də festivalda iştirak edəcək.




Mərkəzdən verilən məlumatda bildirilir ki, əsrlər boyu Anadolunun zəngin mədəni həyatını formalaşdıran yörüklər, yəni, köçəri həyat tərzi sürən xalqlar Türk mədəniyyətinin mühüm bir hissəsini təşkil edib. Antalya da bu qədim mədəniyyətin nümunələrinin yaşadıldığı şəhərlərdən biridir.

Festivalın əsas məqsədi yörük mədəniyyətini gələcək nəsillərə əhatəli şəkildə çatdırmaqdır. Festival Antalyanın bənzərsiz təbii gözəllikləri ilə əhatə olunmuş Döşemealtı Düzlerçamı Karaman piknik sahəsində təşkil olunacaq.

Tədbirdə Türk dünyasının müxtəlif guşələrindən yerli musiqi və rəqs proqramları təqdim olunacaq. Burada qurulan milli çadırlarda türkdilli xalqlar öz mədəniyyətləri və sənətlərini nümayiş etdirəcəklər. Həmçinin unudulmaqda olan əl işləri ustalarının əsərləri sərgilənəcək, ənənəvi Türk mətbəxinin nümunələri qonaqlara təqdim ediləcək, idman yarışları keçiriləcək.

Tədbirdə Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan və Şimali Kipr Türk Cümhuriyyəti ilə yanaşı, Bosniya və Herseqovina, Serbiya, Şimali Makedoniya, Bolqarıstan, Əfqanıstan, Suriya, İran, İraq və digər ölkələr də təmsil olunacaq.

Azərbaycan çadırında ölkəmizin milli mədəniyyəti, incəsənəti, əl işləri geniş şəkildə sərgilənəcək, qonaqlara milli şirniyyatlarımız təqdim olunacaq. Festival çərçivəsində təşkil olunacaq bədii hissədə Azərbaycan musiqiləri və rəqsləri ifa ediləcək. Konsertdə Xalq artisti Azərin, AMM-in solisti Vüsalə Əsgərova, tar ifaçısı Pərviz Musayev, mərkəzin nəzdindəki "Xəzər" rəqs ansamblı çıxış edəcəklər.

# Mədəniyyət Nazirliyi Apellyasiya Şurasının növbəti iclası

Sentyabrın 6-da nazir müavini Səadət Yusifovanın sədrliyi ilə Mədəniyyət Nazirliyi Apellyasiya Şurasının növbəti iclası keçirilib.

İclasda Apellyasiya Şurasının üzvləri – Aparat rəhbərinin müavini – Sənəd və vətəndaşlarla iş şöbəsinin müdiri Elçin Nəcəfov, İnsan kapitalının idarə edilməsi şöbəsinin müdiri Kamil Bayramlı, Strateji inkişaf və layihələrin idarə edilməsi şöbəsinin müdiri Vüqar Məmmədov, Yaradıcı sənayelər və rəqəmsal inkişaf şöbəsinin müdiri Rəşad Əzizov, Hüquq şöbəsinin müdiri Gülər Mikayılova, Daxili nəzarət və audit şöbəsinin müdir müavini Fərid Qurbanzadə iştirak edib.

İclasda Mədəniyyət Nazirliyində vakant olan dövlət qulluğu vəzifələrinin tutulması ilə bağlı Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən 30.04.2024-cü il tarixində elan edilmiş ümumi müsahibə üzrə keçirilmiş müsahibələrin nəticələrinə yenidən baxılması ilə bağlı 3 nəfər namizədin apellyasiya şikayətlərinə baxılıb.

Namizədlərin müsahibə ilə bağlı fikirləri dinlənilib, DİM tərəfindən təqdim edilmiş müsahibələrin videoçəkilişinə və sənədlərinə əsasən Şura üzvlərinin hazırladığı rəylər müzakirə olunub.

Şura üzvlərinin səsverməsinə əsasən, iclasda baxılan məsələlərə dair qərarlar qəbul edilib. Səbuhi Bəşirov, İsax Məmmədov və Vüsal Məmmədovun şikayəti ilə əlaqədar bu namizədlərlə əvvəl keçirilmiş müsahibənin nəticəsi dəyişdirilib və onlar iddia etdikləri vəzifəyə uyğun hesab olunaraq ehtiyat kadrlar siyahısına daxil edilib.

# Bülbülün evində Xalq artisti Mobil Əhmədovun xatirəsi anılıb

Bülbülün Memorial Muzeyində "Bülbülün qonaqları" rubrikasında Xalq artisti, özünəməxsus səsi ilə ürəkləri fəth edən Mobil Əhmədov yad edilib.



Dahi Bülbülün tələbəsi olmuş, sağlığında dəfələrlə müəlliminin evində qonaq olan sənətkarın repertuarından mahnılar səsləndirilib.

Bülbül vokal məktəbinin tələbələri Süleyman Ələsgərovun "Gözəl Şuşam", Azərbaycan xalq mahnısı "Ay Laçın", Tofiq Quliyevin "Lirik mahnı", Rauf Hacıyevin "Azərbaycanım" mahnılarını ifa ediblər.

Sənətkarın tələbəsi, Əməkdar artist Ramil Qasımov, qızı Nigar Əhmədova Mobil Əhmədovla bağlı xatirələrini bölüşüblər.

# Azərbaycanlı rejissorun filmi "Qızıl minbər" festivalında

Xəbər verdiyimiz kimi, 6-11 sentyabr tarixlərində Tatarıstanın (RF) Kazan şəhərində XX "Qızıl minbər" Beynəlxalq Film Festivalı keçirilir.




Bu il festivalın beynəlxalq müsabiqə proqramında "Tammetrajlı bədii film", "Qısametrajlı bədii film", "Sənədli filmlər" və "Animasiya filmləri" bölmələri üzrə 27 ölkədən ümumilikdə 40 film yer alıb.

Festival üçün seçilmiş bütün filmlər sülhpərvərlik, humanizm ideyaları daşıyan mənəvi-əxlaqi dəyərləri və mədəni ənənələri əks etdirir. "Altın minbər"ın açılışında İran rejissoru Babək Hacıpaşanın "Ağacın ağuşunda" filmi nümayiş olunacaq.

Azərbaycanlı rejissor Əli-Səttar Quliyevin "Stadionlar səssiz olanda" sənədli filmi də festivalın proqramında yer alıb. Film "Qarabağ" futbol klubunun baş məşqçisi Qurban Qurbanova həsr olunub. Ekran əsərində mütəxəssisin XX əsrin 80-ci illərindən başlayaraq həyatı, futbolçu karyerası və Ağdam klubu ilə məşqçilik fəaliyyəti göstərilib.

Rusiya Federasiyası Mədəniyyət Nazirliyinin dəstəklədiyi kino layihələri siyahısına daxil olan "Altın minbər" festivalı "Mədəniyyətlərin dialoqundan dialoq mədəniyyətinə" devizi altında 2005-ci ildən keçirilir.

# Avrasiya Dağ Kurortları Alyansının toplantısı

Sentyabrın 8-dən 10-dək Qazaxıstanın Almatı şəhərində Avrasiya Dağ Kurortları Alyansına üzv dövlətlərin dağ kurortlarının sammiti keçirilib. "Oy Karaqay" Dağ Kurortunda keçirilən tədbirdə Azərbaycanı "Şahdağ" Turizm Mərkəzi təmsil edib.




Mərkəzin sədri Rüstəm Nəcəfov turizm kompleksinin potensialı, həyata keçirilən yeniliklər və infrastruktur işləri, eləcə də qış mövsümü çərçivəsində nəzərdə tutulan beynəlxalq tədbirlər və yarışlar haqqında sammit iştirakçılarına məlumat verib.

Sammit çərçivəsində Almatı Dağ Klasteri yaradılıb, həmçinin Cənubi Koreyanın "Mono YongPyong" Dağ Kurortunun Avrasiya Dağ Kurortları Alyansına üzv olması haqqında qərar qəbul edilib.

Avrasiya Dağ Kurortları Alyansı 2023-cü ildə təsis edilib. Alyansa Rusiyanın "Roza Xutor", Qazaxıstanın "Şımbulak", Özbəkistanın "Əmirsoy" dağ kurortları və "Şahdağ" Turizm Mərkəzi daxildir. Bu il isə Qazaxıstanın "Oy Karaqay" və Koreyanın "Mono YongPyong" dağ kurortları da üzv qəbul olunub.

№67 (2132)
11 sentyabr 2024
www.medeniyyet.az

## Sabirabad kitab klubunun hesabat tədbiri

Sabirabad rayon Mərkəzi Kitabxanasında Sabirabad kitab klubunun hesabat tədbiri keçirilib.



Sabirabad rayon MKS-nin direktoru Eldar Urufov çıxış edərək iştirakçılara kitab klubu barəsində məlumat verib. Kitab klubu idarə heyətinin üzvləri ötən müddətdə həyata keçirilmiş tədbirlər barədə danışıblar. Hər ay keçirilən müzakirə görüşləri, "Erudikon" intellektual oyunu, hekayə müsabiqəsi kimi tədbirlərdən bəhs olunub.

Sonra klubun növbəti il üçün planlarından söz açılıb, idarə heyətinin yeni tərkibi tədbir iştirakçılarına təqdim edilib.

Mil-Muğan RMİ-nin rəisi Faiq Xudanlı klubun fəaliyyətinin inkişaf etdirilməsi ilə bağlı təkliflərini bildirib. Tədbir fikir mübadiləsi ilə davam edib.

## "Mənalı yaşanan alim ömrü"

### Teatrşünas Cəfər Cəfərovun 110 illiyi qeyd olunub

Masallı rayon Mərkəzi Kitabxanasında görkəmli sənətşünas, Əməkdar incəsənət xadimi, AMEA-nın müxbir üzvü Cəfər Cəfərovun (1914-1973) anadan olmasının 110 illiyi ilə əlaqədar "Mənalı yaşanan alim ömrü" adlı tədbir keçirilib.



Qeyd olunub ki, Cəfər Cəfərov ömrünü milli teatr tarixinin tədqiqinə həsr edib, bu sahədə qiymətli kitablar və məqalələr ərsəyə gətirib. O, 1955-ci ildə "Mirzə Fətəli Axundovun komediyaları" mövzusunda namizədlik (fəlsəfə doktorluğu), 1962-ci ildə Moskvada "Azərbaycan Dram Teatrı" mövzusunda sənətşünaslıq üzrə elmlər doktorluğu dissertasiyalarını müdafiə edib.

Alimin görkəmli dramaturq, aktyor və rejissorlarımız haqqında elmi əsərləri, tamaşalara yazdığı resenziyalar, dövrün teatr prosesini təhlilə çəkən, mükəmməl elmi mənzərəsini yaradan məqalələri, teatrın, sənətşünaslığın elmi-nəzəri problemləri barədə əsərləri bu gün də milli teatrşünaslığımızın qızıl fondunu təşkil edir.

Mədəniyyət nazirinin müavini və digər məsul vəzifələrdə çalışan Cəfər Cəfərov 1973-cü ildə Bakıda vəfat edib.

## Xalça Muzeyinin Şuşa filialı yeni eksponatlarla zənginləşib

Azərbaycan Milli Xalça Muzeyinin Şuşa filialı iki yeni sənətkarlıq nümunəsi ilə zənginləşib.



Şuşa sakini Sahib Həsənov nənəsi ilə anasının 1959-cu ildə birgə toxuduğu "Bağçada güllər" xalçasını və XIX əsrin ortalarına aid məfrəşi filiala hədiyyə edib.

Öz xatirələrini bölüşən S.Həsənov bildirib ki, 1-ci Qarabağ müharibəsindən öncə bu xalça Şuşada onların evlərinin divarını bəzəyib: "Şəhər işğal olunanda ailəmiz üçün ən əziz əşya kimi onu da Bakıya apardıq. Xalçanın üzərində nənəmin və anamın adlarının baş hərfləri "Ə" (Əzət) və "S" (Səltənət) yazılıb. Xoşbəxtik ki, uzun illər sonra doğmalarımdan yadigar qalan bu xalça da bizimlə bərabər öz yurduna qayıtdı. Düşünürəm ki, ən doğru addım onu muzeyə bağışlamaqdır. Qoy bura gələn turistlər görsünlər ki, Azərbaycan qadınları nələr yaradıb...".

Təqdim olunan Qarabağ xalçasının mərkəzində qızılgül təsviri verilib.

Muzeyə bağışlanan digər əşya isə bir əsrdən artıq yaşı olan məfrəşdir. S.Həsənov bu toxuculuq məmulatından yaylaq-qışlaq köçləri zamanı sandıq kimi istifadə etdiklərini deyib.

## Naxçıvan kuklaçılarının 35-ci mövsümü

Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı 35-ci mövsümündə tamaşaçıları ilə görüşə sentyabrın 14-də gələcək. Həmin gün Xalq artisti Şirzad Abutalıbovun quruluşunda yubiley tamaşa-kompozisiyası nümayiş olunacaq.




Hazırda teatrda yerli müəlliflərdən Eluca Atalının "Ənqa quşu" pyesinin üzərində yaradıcılıq işi davam edir. Tamaşanın quruluşçu rejissoru Xalq artisti Şirzad Abutalıbov, quruluşçu rəssamı muxtar respublikanın Əməkdar rəssamı Sahib Məmmədov, bəstəkarı Əli Məmmədovdur.

Yaradıcı heyət görkəmli yazıçı Cəlil Məmmədquluzadənin "Çay dəsgahı" alleqorik dramına da yenidən səhnə yozumu verəcək.

Hər iki nümunə ilin sonunadək repertuara daxil olacaq.

Uşaqların qış tətili, Yeni il günlərində isə "Maşa və Ayı" cizgi filmi əsasında tamaşa ərsəyə gələcək.

# Bölgələrdən müxtəlif səpkili xəbərlər

Astara rayon Heydər Əliyev Mərkəzində Vətən müharibəsi şəhidləri – çavuş Pərvin Salmanzadə, əsgərlər Nihad Əhmədov və Arif Qeybiyevin doğum günlərinə həsr olunmuş "Vətən torpağı şəhidləri ilə ucalır" mövzusunda tədbir təşkil edilib. Çıxışlarda qalib Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində düşmən qüvvələrini darmadağın edərək qazandığı şanlı Zəfərdən söz açılıb.





***

Masallı rayon Mərkəzi Kitabxanasında "Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar məktəblilərlə görüş keçirilib. Çıxışlarda iqlim dəyişikləri, kənar müdaxilələrin ətraf mühitə mənfi təsiri və dünya üçün ciddi təhlükə mənbəyi olan bu problemlərin həll edilməsində təbiətə qayğının vacibliyi haqqında danışılıb. Məktəblilər kitabxananın həyətində yaşıl dünya mövzusunda qurulan sərgi ilə tanış olub, ətraf mühit haqqında zəruri bilgilər əldə ediblər.





***

Quba-Xaçmaz RMİ-nin təşkilatçılığı ilə Quba rayon MKS-nin Mərkəzi Kitabxanasının uşaq şöbəsi tərəfindən Azərbaycanın Milli Qəhrəmanı Natiq Əhmədovun (1969-1991) 55 illiyi ilə əlaqədar məlumat saatı keçirilib. Milli Qəhrəmanın həyatı və döyüş yolu haqqında iştirakçılara məlumat verilib. Sonda fəal oxucular şəhidlərə, Vətənə həsr olunmuş şeirlər söyləyiblər.

***

Qəbələ Dövlət Rəsm Qalereyasının təşkilatçılığı ilə Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi münasibətilə gənc rəssamların sərgisi keçirilib. Sərgidə nümayiş olunan əsərlərdə müəlliflər Qarabağın füsunkar təbiətini, zəngin mədəniyyətini və xüsusilə də Şuşanın tarixi memarlığını əks etdiriblər.

***

Gədəbəy Aşıq Məktəbində rayon mədəniyyət müəssisələri əməkdaşlarının iştirakı ilə şair Gəray Göyyurdun 60 illik yubileyi və kitabının təqdimatı keçirilib. Şairin həyat və yaradıcılığı haqqında məlumat verilib. Rayon Mədəniyyət Mərkəzinin direktoru Elmira Hacıyeva yubilyarı təbrik edib, ona yeni yaradıcılıq uğurları arzulayıb.

Tədbir Gədəbəy aşıqlarının ifaları ilə davam etdirilib. Gəray Göyyurd "Zəfər sənin zəfərindi, sayın Ali Baş Komandan" kitabı haqqında danışıb və şeir nümunələri səsləndirib.

***

Lənkəran-Astara Regional Mədəniyyət İdarəsinin (RMİ) rəisi Bəxtiyar Qılıncovun iştirakı ilə Astara rayon Mədəniyyət Mərkəzində müşavirə keçirilib. Rayonun mədəniyyət müəssisələri əməkdaşlarının iştirak etdikləri müşavirədə görülmüş işlər, mövcud problemlər və qarşıda duran məsələlərlə bağlı danışılıb. Müəssisələrin fəaliyyətinin müasir tələblərə uyğunlaşdırılması, internet resurslarından, sosial şəbəkələrdən səmərəli istifadənin vacibliyi vurğulanıb, müvafiq tapşırıq və tövsiyələr verilib.

**Hazırladı: N.Məmmədli**

# "Nənə qızlar" folklor ansamblı 32 ildən sonra doğma yurdda

Ağdamın "Nənə qızlar" folklor ansamblının üzvləri 32 ildən sonra yenidən doğma kəndlərinə – Abdal-Gülablıya səfər ediblər.

"Nənə qızlar" burada sanatoriya ərazisindəki bulağın ətrafında rəqs edib, mahnı oxuyublar.

Bakı Dövlət Universitetində "Dədə Qorqud" elmi tədqiqat laboratoriyasının müdiri folklorşünas Almara Nəbiyevanın bildirdiyinə görə, "Nənə qızlar" ansamblı 1982-ci ildə ustad aşıq Xaspolad Mirzalıyevin təşəbbüsü ilə Abdal-Gülablı kəndində yaradılıb və böyük səhnələrdə çıxış edərək uğur qazanıb. 1993-cü ildə Ermənistan tərəfindən Ağdam rayonunun işğal olunması nəticəsində ansambl fəaliyyətini dayandırıb.

"Vətən müharibəsində qazanılan şanlı Qələbədən sonra qərara gəldik ki, "Nənə qızlar" ansamblını bərpa edək. Ansamblın veteranlarını tapdıq, yeni istedadlı xanımlar da dəvət etdik.



Ansamblın "nənəsi" Xavər nənədən halallıq aldıq. Beləliklə, 2023-cü il noyabrın 8-də Ağdamın Quzanlı qəsəbəsində keçirilən Zəfər bayramında ansamblın fəaliyyəti bərpa edildi. Həmin vaxtdan "Nənə qızlar" müxtəlif tədbirlərdə çıxış edir. Ansambl daha böyük uğurlara imza atmağı hədəfləyib", – deyə A.Nəbiyeva əlavə edib.

Qeyd olunub ki, Abdal-Gülablını Qarabağın digər yaşayış məntəqələrindən fərqləndirən cəhət burada muğamla yanaşı, aşıq musiqisinin də inkişaf etməsidir. Bir çox tanınmış aşıq, xanəndə və ifaçı bu kəndin yetirməsidir. "Nənə qızlar" ansamblının üzvlərinin əksəriyyəti Abdal-Gülablıdandır.

Ansamblın "nənəsi" Sabirə Cəfərova 32 il sonra doğma yurda gələrkən kədər və sevinc hissləri yaşadığını bildirib: "Ağdama – Gülablıya gələrkən həm xaraba qalmış kəndimizi görüb kədərləndim, həm də doğma yurdumuza yenidən qədəm basdığım üçün sevindim, köhnə xatirələri yada salıb kövrəldim. Kənddə konsert üçün yerimiz var idi. "Nənə qızlar" ansamblı olaraq hər həftə orada konsert verirdik. Uğurlarımız çox idi. İnşallah, bundan sonra da uğurlarımız davamlı olar".

## Daha 27 ailə qala-şəhərimizə köçürülüb



Şuşa şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Sentyabrın 7-də növbəti köç karvanı ilə Şuşaya qayıdan daha 27 ailəyə evlərinin açarları təqdim olunub. Beləliklə, 91 nəfər Şuşa sakini bu gün doğma yurduna qovuşub.

Mərasimdə Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin rəsmiləri iştirak ediblər.

Ailələrə yeni mənzillərin açarları təqdim olunub. Doğma yurda qayıdan Şuşa sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə ölkə başçısına təşəkkür ediblər.

Beləliklə, bu ilin may ayından indiyəcən Şuşa şəhərində 204 ailənin (763 nəfər) daimi məskunlaşması təmin olunub.

## Qarabağ Universitetində tələbələrə əlavə təqaüd veriləcək

### Tədris sentyabrın 23-də başlayacaq




Bu dərs ilindən Azərbaycanda iki yeni ali məktəb – Bakı şəhərində Türkiyə-Azərbaycan Universiteti və Xankəndi şəhərində Qarabağ Universiteti fəaliyyətə başlayır. Hər iki ali məktəbdə tədris dərs ilinin ikinci həftəsindən, sentyabrın 23-dən etibarən başlayacaq.

Bunu jurnalistlərə müsahibəsində elm və təhsil naziri Emin Əmrullayev deyib.

Nazir bildirib ki, Qarabağ Universitetinə qəbul olan tələbələrin yerləşdirilməsi prosesinə sentyabrın 15-16-dan başlanılacaq. Universitetdə ilk tədris ili olduğu üçün birinci həftə tanışlıq xarakterində olacaq. Əlavə təqaüdlərlə bağlı tələbələrin qeydiyyatının başa çatmasını gözləyirik.

Emin Əmrullayev Qarabağ Universitetinə qəbul olan tələbələrin 99 faizinin qeydiyyatının başa çatdığını söyləyib: "Tələbələrin hər biri təqaüdlə təmin olunacaq. Tədris ili başladıqdan sonra tələbələrə 100-150 manat arasında əlavə təqaüdlər veriləcək. Eyni zamanda bəzi özəl şirkətlər də prosesə qoşularaq tələbələrə əlavə təqaüdlərin verilməsi ilə bağlı təşəbbüs göstəriblər".

## Şuşada qastronomiya mövzusunda dəyirmi masa




Dövlət Turizm Agentliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi və Milli Kulinariya Mərkəzinin birgə təşkilatçılığı ilə sentyabrın 6-da Şuşa şəhərində "Qastronomiya günü" çərçivəsində dəyirmi masa keçirilib.

Tədbirdə Azərbaycanla yanaşı, Türkiyə, Özbəkistan, Pakistan, Səudiyyə Ərəbistanı və İrandan kulinarlar iştirak ediblər.

Şuşa şəhər 1 saylı tam orta məktəbinin direktoru Səbinə Gözəlova şəhərin yaranma tarixindən, Azərbaycanın ədəbiyyat və mədəniyyət salnaməsində görkəmli şəxsiyyətlər bəxş etməsindən danışıb. Bildirilib ki, Şuşa şəhərinin zəngin mədəni irsinin bir hissəsi də onun mətbəxidir.

Azərbaycan Turizm Bürosu Qastronomiya şöbəsinin müdiri Səkinə Əsgərovanın təqdimatında "Azərbaycan bir turizm destinasiyası kimi" mövzusunda videoçarx nümayiş olunub.

Pakistanın Kənd Təsərrüfatı Universitetinin dekanı professor Umar Faruq "Pakistan qastronomiyası və milli mətbəx" mövzusunda çıxış edib.

İranlı ekspert Mona Şahbazi İslam ölkələrində qastroturizmin imkanlarından, Özbəkistanın Dövlət Turizm Komitəsinin nümayəndəsi Cahongir Azamov isə zəngin özbək mətbəxi, mədəniyyəti və adət-ənənələrindən danışıblar.

Türkiyənin Afyon Kocatepe Universiteti Turizm fakültəsinin müəllimi professor Hüseyin Pamukçu türk mətbəxinin təamlarından bəhs edib, bölgənin ləzzətli yeməkləri ilə bağlı məlumat verib. O, həmçinin İslam ölkələrinin qastronomiya sahəsində olan sıx əməkdaşlığı barədə də ətraflı danışıb. Bildirib ki, bu sahəyə uyğun həyata keçirilən müxtəlif layihələr atılan ən vacib addımlardan biridir.

Dəyirmi masa sual-cavab formasında davam edib.

# “Teatrda ötən əsrin 80-ci illərindən başlayan tənəzzül hələ davam edir”

## İsrafil İsrafilov: “Niyə başqa sahələrə qəbul balı 600-700-dür, aktyorluğa qəbul isə 150? Məgər aktyorun intellekti, erudisiyası olmamalıdır?”

Yeni teatr mövsümünün açılışı ərəfəsindəyik. Bəri başdan teatr sənətimizə teatralları sevindirən sənət bayramı, səhnə əsəri adlana biləcək tamaşalar və tamaşaçı sayının artmasını arzulayırıq. Bütün bunlar isə müvafiq iş şəraiti, yaradıcılıq ab-havası tələb edən məsələlərdir. “Müvafiq iş şəraiti”, “yaradıcılıq ab-havası” – əslində, bunlar son dərəcə geniş anlayışlardır və incələməyə lüzum yoxdur, deyə düşünsək də, hər halda, üzərində dayanılmalı məqamlar var...

Çağdaş dövrümüzün görkəmli teatr nəzəriyyəçilərindən biri, Mədəniyyət Nazirliyi nəzdində dövlət sifarişi ilə qoyulan tamaşaların Ekspert şurasının sədri, sənətşünaslıq doktoru, professor İsrafil İsrafilovla söhbətimiz də bu xüsusda görüləcək işlərin çoxluğunu bir daha xatırlatdı.

*– İsrafil müəllim, teatr tənqidçisi olaraq teatrımızın bugünkü mənzərəsi sizə nə “deyir”?*

– Azərbaycan teatrı sırf yaradıcılıq, sənət axtarışları və bunlara yaradılmış şərait baxımından tənəzzül dövrünü yaşayır. Bu tənəzzül 80-ci illərdən başladı, teatr sənətimiz səmtini itirdi. Bunun bir neçə səbəbi var – ictimai-siyasi quruluşda başlayan sapınmalar, görkəmli teatr xadimlərinin dünyasını dəyişməsi, aktyorlar arasında nəsil dəyişilməsinə hazırlıqlı olmamağımız, əvvəlki aktyorları əvəz edə biləcək yeni aktyor nəslinin yetişdirilməməsi. Bunların hər biri çox ciddi səbəbdir. Aktyor nəsilləri arasında uçurumun yaranmasının qarşısını almaq elə də çətin məsələ deyil. Yetər ki, yersiz qısqanclıq olmasın. Müxtəlif teatrlar arasında aktyor, rejissor mübadilələri olmalıdır. Bundan əlavə, dünya teatr prosesinə inteqrasiyaya tam ciddiyyəti ilə yanaşmaq lazımdır. Bu olmasa, yaradıcılıq tapıntılarından danışmaq mümkün deyil.

*– Teatr tariximizdə qürur duya biləcəyimiz adlar, sənət səhifələri az deyil. Uzun illər bu sahədə pedaqoji fəaliyyəti olan alim kimi necə düşünürsünüz, o səhifələrin davamını “yaza” biləcək sənətkarların yetişməsi və özünü ifadə etməsi üçün nə lazımdır?*



– Əvvəla, onu deyim ki, hər xalqın bəxtinə 150 illik teatr tarixi yazılmayıb. Biz bunun qədrini bilmirik. Bu 150 illik tarixin şərəfli adları olan, teatr sənətimizin yaranmasında fövqəladə xidmətlər göstərmiş sənətkarlarımız var ki, onların məzarı yoxdur. Cahangir Zeynalov, Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb üçün rəmzi məzar yaradılması ideyam var idi. Amma bu ideya əks-səda doğurmadı. Biz çalışmalıyıq ki, gənc nəsil səhnə sənəti tarixində dərin iz qoyub getmiş Adil İsgəndərovun, Mehdi Məmmədovun, Tofiq Kazımovun, Vaqif İbrahimoğlunun, Hüseynağa Atakişiyevin və digər istedadlı, bacarıqlı rejissorlarımızın, adlarından ibarət siyahı daha uzun olan gözəl aktyorlarımızın irsi haqqında məlumatlı olsun. Astronomiyada belə bir hal var: hər hansı bir ulduz sönəndən dörd il sonra onun işığı gəlməkdə davam edir. Sənətkarlar da belədir – dünyalarını dəyişəndən illər sonra onların da ziyası saçmaqda davam edir. Əlbəttə, yaxşı olar ki, onların adları əbədiləşdirilsin, yubileyləri layiqli şəkildə qeyd edilsin, festivalların keçirilməsi intensivləşsin. MDB-nin bir çox respublikalarında mənzərə məhz bu cürdür. Bizim onlardan yalnız teatr sənətinə əhəmiyyət vermək cəhətimiz əskikdir.

Fövqəladə istedad sahibi olan sənət adamlarını Allah digər bəndələrindən bir az daha artıq sevdiyinə görə onlara müstəsna istedad verib, bu dünyaya göndərib ki, digər insanlar onlardan muğayat olsunlar, onların qədrini bilsinlər. Kimsə vəfat edəndə biz deyirik ki, filankəs ömrünü sənə bağışladı. Biz, mədəniyyət xadimləri hansı yaş nəslinə mənsub olmağımızdan asılı olmayaraq dünyasını dəyişmiş sənət fədailərimizin müstəqim və ya məcazi mənada davamçılarıyıq, onlar ömürlərini bizə bağışlayıblar. Lev Tolstoy demişkən, ömür Allahın insana bəxş etdiyi böyük mükafatdır, onu Allaha layiq yaşamaq lazımdır. Bunu unutmaq olmaz. Ömür boyda qənimətə etinasız yanaşıb, ömrünü bizə bağışlamış kəslərin ruhuna, qoyub getdikləri irsə dönük çıxmaq düzgün deyil. Teatr çox böyük təsir gücünə malik bir incəsənət növüdür. Teatr mədəniyyətin, cəmiyyətin bütövlükdə halını əks etdirməyə qadirdir. Çünki teatr ideoloji bir məkandır, məfhumdur. Biz teatrın bu xassəsindən azərbaycançılıq məfkurəsini yaratmaq naminə istifadə etməliyik.

*– Nə etməliyik ki, buna nail olaq?*

– Hər şey ondan başlayır ki, Mədəniyyət və İncəsənət Universitetinə qəbul balı 150-dir. Bu nə deməkdir? Niyə başqa sahələrə qəbul balı 600-700-dür, aktyorluğa qəbul isə 150? Məgər aktyorun intellekti, erudisiyası olmamalıdır? Özü də aktyorluğa qəbul bir mərhələdə aparılmamalıdır. 150 illik teatr tarixi olan bir ölkə üçün normal hal sayıla bilməz. Avropada, Rusiyada, Gürcüstanda aktyorluq ixtisasına qəbul bir neçə mərhələdə aparılır, mərhələlərin hər birində abituriyentin ayrı-ayrı bacarıqları yoxlanılır. Teatr menecmenti tamam ayrı bir ixtisasdır, teatrın texniki heyətinin üzvü olmaq da həmçinin. Bu ixtisasları oxuyub öyrənmədən həmin vəzifələrdə çalışmaq geriyə addım atmağa bərabərdir.

Bu xüsusda Elm və Təhsil Nazirliyi ilə Mədəniyyət Nazirliyi arasında sıx əlaqənin olmasını istərdim. Bu əlaqə çox zəifdir. Mədəniyyət sahəsinin korlanmasının ekoloji problemlərini Elm və Təhsil Nazirliyi yaradır. Nəticədə ADMİU-nun diplomu ilə taksi sürücülüyünü peşə seçənlər çoxalır. Son 10-20 ildə yüzlərlə aktyor, rejissor, teatrşünas məzunumuz olub. Hanı onlar? Sənətdə nə qədər hissəsi qalıb? Bütün bunlar azmış kimi, Tədris Teatrının binasını da söküblər. Tələbələr məcbur qalıb burda (ADMİU-nun tədris binasında – red.) növbəli şəkildə məşq edirlər. Məşq üçün yararsız olan adi bir məkanda.

Azərbaycanın coğrafi mövqe baxımından müxtəlif mədəniyyətlərin qovuşuğunda yerləşdiyini unutmamalıyıq. Bu o deməkdir ki, dünyanın mütərəqqi teatr cərəyanlarını tətbiq edərək milli teatr ənənələrimizə uyğun səhnə əsərləri qoyulmalıdır. Azərbaycanın bir tərəqqipərvər dövlət, bir müstəqil respublika olaraq dünya miqyasında tanıdılması istiqamətində çox böyük işlər görülür. Mədəniyyətimiz də bu işlərin miqyası ilə ayaqlaşmalıdır.

**Samirə Behbudqızı**

**Redaksiyadan:** *Sentyabrın 10-da professor İsrafil İsrafilovun 75 yaşı tamam olub. Görkəmli alim və pedaqoqu yubileyi münasibətilə təbrik edir, cansağlığı arzulayırıq!*

# 60-cı anın səadətindən sonra...

## Bir aktyorla baş tutmayan müsahibənin təəssüratı

Söz vaxtına çəkər. Ötən ilin bu vaxtları idi. Azərbaycan Teatr Xadimləri İttifaqı (ATXİ) və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə həyata keçirilən “Qonaq teatr” layihəsi çərçivəsində Qazax Dövlət Dram Teatrının təmsilçiləri paytaxta gəlmişdilər. Onlar ATXİ-nin səhnəsində həm 85 illik yubileylərini qeyd etdilər, həm də “İnan mənə” adlı yeni tamaşa (müəllif Ağalar İdrisoğlu) ilə izləyicilərin qarşısına çıxdılar.



Tamaşanın mövzusu da, təqdimat üsulu da, aktyorların oyun tərzi də bizi keçmişə – sovet rejiminin dağıldığı, ölkədə hərc-mərcliyin baş alıb getdiyi vaxta aparırdı. Qanunları heçə sayan əsas obrazlardan birini də o oynayırdı – Qazax teatrının fədaisi Aydın Orucov.

Həmin gün həm də təltif olunacaqdı. 60 illik yubileyini Bakı səhnəsində, teatr biliciləri qarşısında keçirirdi.

Professor Əmirov rolunu oynayan yubilyar səhnədə xeyli gümrah idi. Bir gözü də zalda. Sanki kimisə axtarır, tamaşaçıların münasibətini özü üçün ayırd etməyə çalışırdı.

Tamaşa bitdi və sürəkli alqışlar altında heyət səhnədə sıralandı. Teatr adamlarına zamanında dəyər verən ATXİ-nin rəhbərliyi Aydın Orucovu 60 illik yubileyi münasibətilə fəxri fərmanla təltif etdi.

Fərmanı və qırmızı gül dəstəsini sinəsinə sıxıb təzim edən bəyaz geyimli aktyor həmin gecə səhnədə bir işıq kimi yanırdı...

***

Onunla maraqlı bir söhbət etmək fikrim vardı. Təəssüf ki, üzücü xəbər sosial şəbəkələrdə boy verdi: “Sentyabrın 4-də Qazax Dövlət Dram Teatrının aktyoru, bir-birindən fərqli rolların mahir ifaçısı Aydın Orucov qəfil dünyasını dəyişib”.

Sevimli məkanında – teatrda olan aktyor məşq prosesi gedən tamaşalarda məşğul idi. Ümumiyyətlə, o, Qazax teatrının 36 illik tarixində, demək olar ki, bütün tamaşalarda oynayıb. 60 yaşını səssiz-səmirsiz yola salan aktyor yeni mövsümə də böyük sevgi ilə hazırlaşırdı.

Aktyorun illər əvvəl özü haqqında dediklərini bu gün yenidən xatırlamaq yerinə düşər: “1978-ci ildən 1988-ci ilə kimi mən Xalq teatrının həvəskar aktyoru oldum. Bu illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki ADMİU – red.) məzunları Gülgün Kərimovun və Musa Eyyubovun rejissorluğu ilə müxtəlif tamaşalarda çıxış etdim. Nəhayət, 1988-ci ildə Qazaxda Dövlət Dram Teatrı bərpa olundu. Teatra ilk dəvət olunanlardan biri də mən oldum. Bu teatrda, demək olar ki, oynadığım rolların əksəriyyəti baş rollar olub. Qazax Dövlət Dram Teatrında ilk işimiz Xalq artisti Zülfüqar Abbasovun rejissorluğu ilə Xalq şairi Bəxtiyar Vahabzadənin “Dar ağacı” tarixi faciəsi oldu. Mən Altay rolunu oynadım. Sonralar irili-xırdalı bir çox tamaşada çıxış etdim”.





Sənətə, səhnəyə hələ uşaqlıqdan bağlanan Aydın Orucov 1963-cü il avqustun 22-də Qazax rayonunda anadan olub. 1970–80-ci illərdə orta təhsil alıb. Hərbi xidmətdən qayıtdıqdan sonra 1984-cü ildə Gəncə Baza İnşaat Texnikumuna daxil olub və 1986-cı ildə həmin təhsil ocağını başa vurub.

Amma səhnə sevgisi, bu ecazkar aləm onu təhsil istiqamətinin ardınca getməyə imkan verməyib. Hələ orta məktəbdə oxuduğu illərdə Qazax Xalq teatrında həvəskar aktyor kimi çalışdığından bu sənətdən qopa bilməyib. Beləcə, Qazaxda Dövlət Dram Teatrı bərpa olunanda, 1988-ci ildə burada aktyor kimi işə başlayıb və son nəfəsinədək sənət ünvanını dəyişməyib.

Bu uzun illər ərzində o, teatrın səhnəsində oynanılan Mehdi Hüseynin “İntizar”ında Ələskər, “Alov”unda Fərman, Ramiq Muxtarın “Şəhərli kürəkən”ində Vaxtanq, İsgəndər Çosqunun “Ana laylası”nda Musa, Nəcəf bəy Vəzirovun “Yağışdan çıxdıq, yağmura düşdük” tamaşasında Qıdı kirvə, Əbdürrəhim bəy Haqverdiyevin “Yeyərsən qaz ətini, görərsən ləzzətini” əsərində Məşədi, “Bəxtsiz cavan”ında Hacı Səməd, Abdulla Şaiqin “Fitnə”sində Təlxək, Vaqif Səmədoğlunun “İntihar”ında Professor Samson, Elçinin “Cəhənəm sakinləri”ndə Qonaq, Əhməd Orucoğlunun “Sonuncu seriya”sında Kazım, “Pul dəlisi”ndə Qulam, Viktor Hüqonun “Edam məhkumu”nda Məhbus, Səməd Vurğunun “Vaqif”ində Eldar, Əli Səmədlinin “Ölüm hökmü”ndə Alverçi, Mirzə Fətəli Axundzadənin “Molla İbrahimxəlil kimyagər”ində Kimyagər, Elçin Hüseynbəylinin “İmperator”unda Kişi və s. – ümumilikdə, yüzdən çox tamaşada rol alıb. Bunlardan əlavə, bir neçə qısametrajlı filmə çəkilib.

Onun yaradıcılıq tərcümeyihalına nəzər saldıqda, xarakterik rollar ifaçısı olmaqla yanaşı, həm də əsl fədai ömrü yaşadığı aydın sezilir.

Aydın Orucov şan-şöhrətsiz sadə aktyor ömrü yaşadı və bu etibarsız dediyimiz dünyadan bir gün qəfil küləyə tablaşmayan payız yarpağı kimi qopub düşdü. Oynadığı rollarını onu tanıyanlara, səhnədə izləyənlərə xatirə qoyub getdi...

Bilmirəm niyə, amma aktyorlar dünyasını dəyişəndə mən lap çarəsizləşirəm. Elə bilirəm ki, ifaçısını itirən bu rollar anası qəfil ölən balaca uşaqlar kimi pərən-pərən düşürlər və heç bir qucaqda valideyn hərarətini tapa bilmirlər. Təsadüfi deyil ki, o da bütün həmkarları kimi rolları arasında ayrı-seçkilik etməz, “Elə bil övladlarımdılar. Adam heç övladları arasında fərq qoyarmı?” deyib gülərmiş...

Allah rəhmət eləsin.

**Həmidə Nizamiqızı**

# İnarə Babayevanın solo konserti olacaq

## Sona Aslanovanın 100 illiyinə ithaf

Oktyabrın 7-də Beynəlxalq Muğam Mərkəzində Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının aparıcı solisti, Əməkdar artist, Prezident mükafatçısı İnarə Babayevanın solo konserti keçiriləcək.




Konsert Azərbaycanın görkəmli vokal ifaçısı, Əməkdar artisti Sona Aslanovanın anadan olmasının 100 illiyinə həsr olunacaq.

Proqramda Sona Aslanovanın repertuarından 50 ildən artıqdır ifa olunmayan dünya və milli klassik musiqi əsərləri səslənəcək.

Konsertdən əvvəl İnarə Babayevanın Sona Aslanovanın yaradıcılığına həsr olunmuş kitabının təqdimatı da olacaq.

# Qazax və Füzuli teatrları da yeni mövsümə başlayır

Qazax Dövlət Dram Teatrı yeni mövsümün açılışını 12 sentyabrda Əli Əmirlinin “Onun iki qabırğası” məişət komediyası ilə açacaq. Tamaşaya teatrın baş rejissoru Əməkdar artist Musa Eyyubov quruluş verib.



Musa Eyyubov yazıçı-dramaturq Əli Əmirlinin “Şəhid atası” pyesinə də səhnə həyatı verəcək. İlk nümayiş Zəfər Günü – noyabrın 8-də olacaq.

Bundan əlavə, teatrın repertuar planına uyğun olaraq, Qilyermo Fiqeredonun “Ezop” əsərinin məşqlərinə başlanılıb. Əməkdar artist Xəzər Gəncəlinin quruluşunda hazırlanan tamaşanın premyerası dekabr ayına nəzərdə tutulub.

Qazax teatrı Mədəniyyət Nazirliyinin təşkil edəcəyi növbəti Monotamaşalar festivalına da hazırlaşır. Festival üçün Semuel Bekketin “Sözsüz əməl” pyesi əsasında “Səmirsiz” tamaşası hazırlanıb. Səhnə əsərinə Akademik Rus Dram Teatrından dəvət olunmuş rejissor Abdulla Elşadlı quruluş verib.

Teatrın Türkiyənin Ankara şəhərində oktyabr ayında keçiriləcək beynəlxalq festivalda “Love butik” tamaşası ilə iştirakı da gözlənilir.

***




Füzuli Dövlət Dram Teatrı 35-ci mövsümünü sentyabrın 20-də “Adsız” tamaşası ilə açacaq. Yazıçı-dramaturq Firuz Mustafanın eyniadlı pyesi əsasında hazırlanan tamaşaya teatrın baş rejissoru Əməkdar artist Asif Şirinov quruluş verib. Quruluşçu rəssam Ellinaz Balaşova, musiqi tərtibatçısı Sənan Sevindikzadədir.

Əlilliyi olan gəncin cəmiyyətə münasibəti və ümumilikdə həssas qrupdan olan insanların duyğu-düşüncələrindən bəhs edən tamaşanın ideyası insanların günahı kənarda deyil, öz içində axtarmasıdır.

Rolları Vüqar Babayev, Xurşud Babayeva, İntizar Quliyeva, Qaçaq Qarayev, Əli Hüseynov ifa edirlər.

Sənət ocağında Xalq yazıçısı Kamal Abdullanın “Bir, iki-bizimki!” pyesi əsasında tamaşa da hazırlanır. Səhnə işinin quruluşçu rejissoru Nicat Mirzə, rəssamı E.Balaşova, musiqi tərtibatçısı Ziyad Süleymanovdur.

Nəcəf bəy Vəzirovun “Ağa Kərim xan Ərdəbili” əsəri də ilin sonunadək tamaşaçıların qarşısına çıxacaq. Tamaşaya A.Şirinov quruluş verir. Quruluşçu rəssam E.Balaşova, musiqi tərtibatçısı Z.Süleymanovdur.

# “Naz-nazı” muğam qrupu “Bakıdan Gəncəyə” layihəsində

Sentyabrın 30-da “Bakıdan Gəncəyə” layihəsi çərçivəsində Xalq artisti, tarzən Malik Mansurovun rəhbərliyi ilə “Naz-nazı” muğam qrupunun konserti olacaq.




Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında keçiriləcək konsertdə “İz” və “Yari-pünhan” kompozisiyaları, “Xumar oldum”, “Dağların başı” və s. xalq mahnıları, “Gül dəstəsi” xalq rəqsi, “Qarabağ şikəstəsi”, “Çahargah” dəramədi səslənəcək.

Konsert Gəncə Dövlət Filarmoniyası, Beynəlxalq Muğam Mərkəzi və Azərbaycan Milli Konservatoriyasının birgə təşkilatçılığı ilə reallaşacaq.

№67 (2132)
11 sentyabr 2024
www.medeniyyet.az

# Gədəbəy Aşıq Məktəbi 10 yaşında

Gədəbəy Aşıq Məktəbinin fəaliyyətə başlamasının 10 ili tamam olur. Məktəbin binasının təməli 26 may 2009-cu ildə Prezident İlham Əliyev tərəfindən qoyulub. Dövlətimizin başçısı 10 sentyabr 2013-cü ildə məktəbin açılış mərasimində çıxış edib, Azərbaycanda aşıq sənətinin tədrisi üzrə ilk məktəbin fəaliyyətinə uğurlar arzulayıb.



Məktəb 2014-cü ildə qapılarını şagirdlərin üzünə açıb. Ötən on ildə burada beynəlxalq, respublika və rayon səviyyəli 200-dən çox tədbir keçirilib. Bu sırada II Beynəlxalq Aşıqlar Festivalı (2014) çərçivəsində konsert, Aşıq Ələsgər, aşıq sənətinə mühüm töhfələri olmuş şair İlyas Tapdıq, Aşıq Şəmşir, aşıq Vəli Miskinli, aşıq, balaban ifaçısı Sərdar Məmmədli və başqa sənətkarların yubileylərini qeyd etmək olar. Aşıq sənətinin tədqiqatçısı, professor İradə Köçərli, Aşıq Ələsgər haqqında telefilmin rejissoru, Əməkdar incəsənət xadimi Nizami Abbas, Əməkdar mədəniyyət işçiləri aşıq Sayad Pənahov, balaban ifaçısı Həsən Sarıyev, aşıqlar Sədaqət Rəsulov, Dəmir Vəliyev və başqaları ilə görüşlər təşkil olunub.




Məktəbdə Mədəniyyət Nazirliyinin dəstəyi ilə ixtisasartırma dərsləri (sertifikasiya), Prezident təqaüdçüsü, Əməkdar mədəniyyət işçiləri aşıq Ulduz Quliyevanın, aşıq İmanverdi Mustafayevin, Cənubi Azərbaycandan aşıq Cavad Məhərrəminin, balaban ifaçısı Nizami Abbasovun ustad dərsləri keçirilib.

Gədəbəy Aşıq Məktəbinin təşkilatçılığı ilə 2016-cı və 2017-ci illərdə yeniyetmə və gənc aşıqların müsabiqəsi də keçirilib. 2017-ci ildə təşkil olunan müsabiqədə Gədəbəylə yanaşı, Gəncə şəhəri, Şəmkir, Qazax, Ağstafa, Tovuz, Kəlbəcər və Daşkəsən rayonlarından da nümayəndələr iştirak ediblər. 70-dək ifaçı sırasından qaliblər seçilib.

Ötən dövrdə məktəb Mədəniyyət Nazirliyinin dəstəyi ilə təşkil edilmiş "Bölgələrdən paytaxta" silsilə tədbirlərində, Şəmkirdə reallaşan "Yeniyetmələrin oxu ifaçılığı" müsabiqəsində, "Heydər Əliyev İli" münasibətilə uşaq və yeniyetmələr arasında keçirilən respublika müsabiqəsində, Milli Yaylaq Festivalında, Aşıq Şəmşirin 125 illik yubileyində və digər tədbir və layihələrdə fəal iştirak edib, müxtəlif qurumlar tərəfindən diplom, təşəkkürnamə və digər təltiflərə layiq görülüb.




Təhsil ocağında folklor ansamblı, dastan heyəti, xalq çalğı alətləri ansamblı və "Bayatı" qrupu, həmçinin "Miskin Abdal ədəbi məclisi", Gədəbəyin tanınmış ziyalıları haqqında məlumatlardan tərtib edilmiş "Örnək bilgi dərgisi" yaradılıb.

2018-ci ildə məktəbin dörd müəllimi Azərbaycan aşıqlarının VI qurultayında iştirak edib.

Məktəbin Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi Metodiki və İxtisasartırma Mərkəzi, Azərbaycan Aşıqlar Birliyi, AMEA-nın Folklor İnstitutu ayrı-ayrı aşıq və balaban ifaçıları ilə əlaqələri qurulub. Təhsil müəssisəsində aşıq sənətinin tədrisi ilə bağlı metodik vəsait və aşıq sənətinin tarixi fənni üzrə tədris proqramı vəsaiti hazırlanıb.

Məktəbin fəaliyyəti, aşıq sənətində oxu və çalğı ifaçılığı, folklorda aşıq sənəti və s. mövzularda, saz-söz sənətkarları ilə bağlı keçirilən tədbirlər müxtəlif media orqanlarında işıqlandırılıb.

Hər il məzunlarımız Mədəniyyət və İncəsənət Universiteti, Milli Konservatoriya və orta ixtisas musiqi təhsili ocaqlarına qəbul olunurlar.

**Etibar Nadiroğlu**
**Gədəbəy Aşıq Məktəbinin direktoru**

# "Şəhidlər parkı"nın genişlənməsi "Yaşıl dünya naminə həmrəylik ili"nə də töhfə olacaq

Azərbaycanın yeni tarixinə dörd il əvvəl yazılan və milli təqvimimizdə əbədi anlam qazanan 27 Sentyabr – işğal altındakı Vətən torpaqlarının azad edilməsi uğrunda həlak olmuş şəhidlərin Anım Günü yaxınlaşır. O gün tarixi yaddaşımız üçün həqiqət anı, qırılma nöqtəsi idi. Ali Baş Komandan yağı düşməni yurd yerlərimizdən vurub çıxarmaq əmrini vermişdi: "Hesab edirdilər ki, bizim torpaqlarımızda əbədi oturacaqlar, bizə meydan oxuyacaqlar. Səbrimiz tükəndi, dedim irəli!...".




Televiziya ilə xalqa müraciətində Vətən müharibəsinin başladığını bildirən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Qarabağ məsələsinin milli məsələ, bu məsələnin həllinin isə tarixi vəzifə olduğunu bəyan etdi: "Biz bunu elə həll etməliyik ki, tarixi ədalət bərpa edilsin. Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun... Azərbaycan xalqı öz torpağında yaşamaq istəyir...".






Həmin gün irəli gedən igidlər tariximizə şan və şərəf salnaməsi yazdılar. 44 günlük haqq savaşında qazanılan Zəfər bu yolda canını qoyanların və Vətən-torpaq uğrunda özünü fəda edən cəmi şəhidlərimizin ruhunu şad etdi.

Azərbaycan xalqı adlarını tariximizə əbədi həkk etmiş qəhrəman övladlarının xatirəsini qəlbində yaşadır. Şəhidlərin xatirəsi ölkəmizin hər yerində əbədiləşdirilir, o cümlədən park və bağlarda abidələr, memorial komplekslər yaradılır.

Bu gün Bakıda şəhidlərin xatirəsini yaşadan, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canını fəda edənlərin adına salınan bir park da var. Qaradağ rayonunda, "Sədərək" ticarət mərkəzinin ərazisinin yaxınlığında salınan "Şəhidlər parkı"nın təntənəli açılışı 2021-ci ilin 8 noyabrında, Zəfərimizin ildönümündə keçirilib.

Ticarət mərkəzində fəaliyyət göstərən "Sabit Mühafizə Xidməti" (SMX) MMC-nin təşəbbüsü, "Sədərək" firması rəhbərliyinin dəstəyi ilə ilk mərhələdə yarım hektar sahədə salınan parkda əkilən ağaclar boy atıb. Ərazidə becərilən müxtəlif gül kolları ilə birlikdə bura füsunkar məkana çevrilib. Bu ağacların bir qismi şəhidlərin ailə üzvlərinin, yaxınlarının iştirakı ilə əkilib və onların yanında şəhidlər haqqında məlumat lövhəsi qoyulub. İndi o ağacların hərəsi bir şəhidin adı ilə böyüyür.

"SMX" MMC-nin direktoru Şahlar Səfərov deyir ki, "Sədərək" firmasının rəhbərliyi "Şəhidlər parkı"nın yaradılması təşəbbüsünü ilk gündən təqdirlə qarşılayıb və bu gün də onun genişlənməsi, daha da abadlaşması üçün hər cür dəstək göstərir.

Parkın dörd yanı boyunca tariximizə qəhrəmanlıq salnaməsi yazan şəhidlərin portretlərindən ibarət stendlər qurulub. İndiyədək stendlərə 340 şəhidin portreti vurulub və bu iş davam etdirilir. Stendlərin üzərində Azərbaycan bayraqları ilə yanaşı, tarixi Zəfərimizə dəstək verən qardaş Türkiyənin bayraqları da dalğalanır. "Şəhidlər parkı"nda iki "Şəhid bulağı" inşa edilib, ağacların əhatəsində söhbətgah qurulub.

Burada şəhid ailələri ilə görüşlər keçirilir. Hər belə görüşdən isə parkda şəhidlər adına əkilən yeni ağaclar yadigar qalır. Onu da əlavə edək ki, parkın yanında, "SMX" MMC-nin inzibati ərazisində Vətən müharibəsi şəhidi, "SMX" MMC-nin əməkdaşı olmuş Nəcməddin Sarkayevin (1999–2020) büstü qoyulub.



Buradakı xatirə mərasimləri də qəhrəman şəhidin büstünün ziyarət olunması ilə başlayır.

Ticarət mərkəzinə yolu düşən şəhid yaxınları vaxtaşırı "Şəhidlər parkı"na baş çəkir, qəhrəman Vətən övladlarının xatirəsinə yaşıl abidə olan məkanda dincini alır, parkın salınmasında dəstəyi və zəhməti keçənlərə, burada çalışanlara, aqrotexniki qulluq və abadlıq işləri görənlərə minnətdarlıq edirlər.

Bir müddətdir ki, parkın ikinci mərhələsində işlərə başlanılıb. Daha bir hektar ərazidə ağac və güllər əkilib, suvarma xətləri çəkilib və beləliklə, "Şəhidlər parkı"nın ərazisi üç dəfə böyüyərək 1,5 hektara çatıb. Burada ümumilikdə 3 mindən çox müxtəlif növ ağac və gül kolları əkilib. Parkın yanında, "SMX" heyətinin təlim-toplanışlarının da keçirildiyi idman meydançası və ətrafındakı yaşıl zona (təxminən 0,1 hektar) da nəzərə alınsa, ümumilikdə yaşıllıq sahəsi 1,6 hektarı əhatə edir. Onu da qeyd edək ki, ərazidə aqrotexnika sahəsi üzrə qabaqcıl üsul olan damlama suvarma sistemi qurulub.

"Şəhidlər parkı"nın ikinci mərhələsi ilə bağlı işlər çərçivəsində əraziyə, Bakı-Qazax magistralından sağa ayrılmaqla 450 metr uzunluğunda, 8 metr enində yeni asfalt yol da çəkilib. Eyni zamanda parka gələcək ziyarətçilərin rahatlığı üçün burada ayrıca avtodayanacaq yaradılıb. Parkdan ticarət mərkəzinə də yeni salınan yolla rahat getmək olacaq.

Lakin görülən işlər bununla bitmir. "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində daha böyük bir layihənin icrasına başlanılıb.

Prezident İlham Əliyevin 2024-cü ilin Azərbaycan Respublikasında "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında sərəncamında qeyd olunduğu kimi, bu gün ölkəmizin sosial-iqtisadi inkişafına dair əsas prioritetlərdən biri təmiz ətraf mühit və yaşıl artımdır. Bu prioritetə uyğun olaraq, hər yerdə ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması istiqamətində işlər aparılır.

"Sədərək" firması və "SMX" MMC-nin təşəbbüsü ilə Qarabağ savaşlarında qəhrəmancasına şəhid olmuş soydaşlarımızın əziz xatirəsinə ehtiram əlaməti olaraq salınan "Şəhidlər parkı"nın ərazisinin genişləndirilməsi layihəsi də bu istiqamətdə təqdirəlayiq addımdır.

Layihə üzrə Qaradağ rayonu Lökbatan qəsəbəsi ərazisində, Bakı-Qazax magistralının sağ cinahı boyunca, "SMX" MMC-nin inzibati binasının yerləşdiyi ərazidən "Sədərək" TM-in 1-ci elektron keçid məntəqəsinədək (Şıxov istiqaməti) olan sahə məişət tullantılarından və qrunt sularının yaratdığı gölməçələrdən təmizlənir. Burada 20 min ağacın (5 min zeytun, 5 min Eldar şamı, 10 min evkalipt) əkilməsi nəzərdə tutulub. Ümumilikdə 16 hektar ərazidə yaşıllıq zolağı salınacaq.

Avqust ayında başlanan layihənin noyabr ayında başa çatması nəzərdə tutulub. Hazırda traktor və digər texnikanın cəlb olunduğu ərazidə qızğın iş gedir, əkiləcək ağaclar üçün zolaqlar müəyyən edilir. Zəruri işlər başa çatandan sonra ağacəkmə aksiyası başlanacaq.

Yeni yaşıllıq zolağı salınacaq ərazinin başlanğıc və sonunda layihə ilə bağlı müvafiq məlumatlandırma lövhələri də qoyulub. Bu yerlərin indiki boz biyaban görüntüsünü bir müddət sonra başqa mənzərə əvəz edəcək. Şəhidlərin əziz xatirəsini yaşadan geniş məkan Bakının ən böyük parklarından biri kimi "Yaşıl dünya naminə həmrəylik ili"nə töhfə, gələcək illərə isə yaşıl yadigar olacaq.

**Vüqar Orxan**

# Tanınmış jurnalist Hidayət Elvüsal vəfat edib

Müasir Azərbaycan mətbuatı tarixində özünəməxsus dəst-xətti ilə tanınan jurnalist, istedadlı publisist Hidayət Elvüsal 8 sentyabr 2024-cü il tarixində, 75 yaşında vəfat edib.



Hidayət Yunis oğlu Əhmədov (Hidayət Elvüsal) 1949-cu il iyunun 25-də Kəlbəcər rayonunda anadan olub. Bakı Dövlət Universiteti Filologiya fakültəsinin jurnalistika şöbəsini bitirib. Rayonda nəşr olunan "Yenilik" qəzetində, yerli radio verilişləri redaksiyasında çalışıb, həmçinin Azərbaycan Radiosu ilə əməkdaşlıq edib.

Sonrakı illərdə "Azərbaycan gəncləri", "Kommunist" və başqa qəzetlərdə işləyib. Ötən əsrin 90-cı illərinin əvvəllərində nəşr edilən "Səhər" qəzetinin təsisçilərindən biri olub. Hidayət Elvüsalın, xüsusilə, "Belə-belə işlər" rubrikası ilə dərc olunan yazıları maraqla qarşılanıb. O, sonralar eyniadlı qəzet də təsis edib.

Şair Şücaətin qardaşı olan Hidayət Elvüsal özü də şeirlər qələmə alıb, həvəskar bəstəkar kimi də fəaliyyət göstərib. 2019-cu ildə "Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyinin dəstəyi ilə onun "Kəlbəcər" adlı mahnılar toplusu işıq üzüb.

İyunun 27-də Azərbaycan Mətbuat Şurasında veteran jurnalistin 75 illik yubileyi qeyd olunmuşdu.

Allah rəhmət eləsin.

# Azərbaycanlı professor Türk dünyasının alimləri üçün mühazirə oxuyub

Qazaxıstanın Türküstan şəhərində Beynəlxalq Türk Akademiyasının təşkilatçılığı, Türkiyə Elmlər Akademiyası, Türk Dil Qurumu və Əhməd Yəsəvi Beynəlxalq Türk-Qazax Universitetinin dəstəyi ilə Türk dünyasının gənc alimləri üçün "Türkologiya" və "Yeni enerji texnologiyaları" mövzularında yay məktəbləri keçirilib. Yay məktəblərinə mühazirəçi qismində türk ölkələrindən 30-dan çox tanınmış alim qatılıb.




"Türkologiya" yay məktəbində AMEA Folklor İnstitutu Müasir folklor şöbəsinin müdiri professor Füzuli Bayat Qırğızıstan, Türkmənistan, Qazaxıstan, Türkiyə, Azərbaycan, Özbəkistan və Monqolustandan olan gənc alim və tədqiqatçılara "Qədim türk mifologiyası" mövzusunda mühazirə oxuyub.

Folklor İnstitutundan bildirilib ki, mühazirədə türk mifologiyasında dünya modeli, dünyanın üçlü strukturu, Tanrı-ruhlar, Tanrı-insan münasibətləri və s. məsələlərdən bəhs olunub.

Yay məktəbi çərçivəsində gənc alimlər Türk dünyasının tarixi, arxeologiyası, dili və ədəbiyyatı üzrə nəzəri və tətbiqi biliklərini dərinləşdirmək imkanı əldə ediblər.

# Xətaiyə həsr edilmiş beynəlxalq konfransın iştirakçıları Ədəbiyyat Muzeyində

Şah İsmayıl Xətaiyə həsr edilmiş beynəlxalq konfransın iştirakçıları Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyini ziyarət ediblər.

Türkiyəli alimlər – Ankara Hacı Bayram Vəli Universitetinin Lisansüstü Təhsil İnstitutunun "Ədəb-ərkan" elmi jurnalının rəhbəri professor Əhməd Taşğın, jurnalın əməkdaşı Hakkı Taşğın, Kastamonu Universiteti əməkdaşı professor Namiq Musalı, Munzur Universitetinin (Tunceli) professoru Əziz Ərdoğan, Atatürk Universitetinin professoru Ali Sinan Bilgili, eləcə də Vyana Universiteti Pedaqoji Təhsil Kollecindən doktor Erdal Kalaycı və Nurten Kalaycı muzeylə tanış olublar.

Muzeyin direktoru akademik Rafael Hüseynov qonaqlarla görüşüb. Alim və tədqiqatçılarla beynəlxalq konfransla bağlı fikir mübadiləsi aparılıb.

Rafael Hüseynov qonaqlara muzeyin "İstiqlal zalı"nın tarixindən söz açıb, 2017-ci ildə bu tarixi məkanda görkəmli dövlət xadimi, sərkərdə və şair Şah İsmayıl Xətainin 530 illik yubileyi ilə bağlı "Xətainin qılıncı və qələmi" mövzusunda respublika konfransı keçirildiyini qeyd edib.

Muzeyin əməkdaşı filologiya üzrə fəlsəfə doktoru Nərmin Əliyeva qonaqları ekspozisiya ilə tanış edib, o cümlədən Xətainin həyat və yaradıcılığına həsr olunmuş guşədən ətraflı bəhs edib.

Xatırladaq ki, I Beynəlxalq Şah İsmayıl Xətai konfransı ötən həftə AMEA-nın A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu və Türkiyənin Hacettepe Universitetinin təşkilatçılığı ilə keçirilib. Tədbirə Türkiyə, Qazaxıstan, Özbəkistan, Avstriya, Böyük Britaniya və İrandan tədqiqatçılar qatılıb.

# Yeni dərs ilində “Ümumi türk ədəbiyyatı” da tədris ediləcək

## Türk dünyasının ortaq əlifbası məsələsi isə hələ uzun prosesdir

Sentyabrın 9-da Bakıda Türk Dünyası Ortaq Əlifba Komissiyasının üçüncü iclası işə başlayıb.

İclasda çıxış edən Türk Akademiyasının (mənzil-qərargahı Astanada yerləşir) prezidenti Şahin Mustafayev diqqətə çatdırıb ki, 2022-ci ilin oktyabrında Türkiyənin Bursa şəhərində keçirilən seminarda Türk Dünyası Ortaq Əlifba Komissiyasının yaradılması qərarı Türk Dövlətləri Təşkilatına (TDT) təqdim edilib. “Əsas məqsədimiz ortaq əlifba yaratmaqdır. Türk dünyasının dövlət başçıları bizdən hazır əlifba gözləyirlər”, – deyə o bildirib.

Ş.Mustafayevin sözlərinə görə, türk ölkələri və xalqları vahid əlifbaya keçid məsələsində artıq ciddi akademik irəliləyiş əldə ediblər, lakin siyasi qərarların qəbulu müəyyən vaxt apara bilər: “Bugünkü iclasda Türk dünyası ortaq əlifbasının 14 hərfi təsdiq olundu. Ümid edirik ki, tezliklə Türk dünyasının ortaq əlifbasının bütün hərfləri razılaşdırılacaq və təsdiq olunacaq”.

Bəzi ekspertlər lap əvvəldən Türk dünyası ortaq əlifbasının yaradılması məsələsinə siyasi nöqteyi-nəzərdən yanaşmağa çalışırlar. Amma hesab edirəm ki, bu, belə deyil. Biz Türk dünyası üçün ortaq əlifbanın elmi səviyyədə yaradılmasının tərəfdarıyıq.

Bunu isə Azərbaycanda Atatürk Mərkəzinin direktoru akademik Nizami Cəfərov deyib.

Türk dillərinin qrammatikası, o cümlədən fonetik özəllikləri barədə fikirlərini bölüşən akademik bildirib ki, bəzən bir fonem 3-4 səsdən fərqlənir və təbii olaraq, bu səslərin hər birinin gələcəkdə öz fonetik rolu olacaq: Məsələn, Azərbaycan dilində bizdə “çı”, “çi”, “çu” kimi şəkilçilər var ki, onları ayırd etmək üçün fonemlərdən istifadə edilir. Fonetik cəhətdən də fərqlənən “lük”, “lik”, “luk”, “lık” kimi şəkilçilər də var. Lakin biz bu samit və saitləri ayrı-ayrı fonemlər hesab edə bilmərik. Fonetikada biz onları qapalı fonemlər hesab edirik. Ancaq məsələn, türk dillərində adətən çox vacib olan kar samitləri müəyyən etməkdə çətinliklər mövcuddur. Özbək dilində kar samitlərin böyük tarixi əhəmiyyəti var.



“Çox səslər var, lakin onları təmsil edən fonemlər olduqca azdır. Məhz bunun üçün biz bu səslər üçün ayrıca fonemlər yaratmalıyıq”, – deyə Nizami Cəfərov əlavə edib.

Türk Dilçilik Cəmiyyətinin prezidenti Osman Mert iclasın əhəmiyyətindən bəhs edərək deyib ki, ortaq əlifbaya addım-addım yaxınlaşmaq lazımdır.

O bildirib ki, Türkiyə, Azərbaycan, Özbəkistan və Türkmənistan artıq latın əlifbasından istifadə edir. İndi növbə Qazaxıstan və Qırğızıstanındır.

Türk Dilçilik Cəmiyyətinin rəhbəri qeyd edib ki, Qazaxıstanın latın əlifbasına keçməsi 2025-ci ilə qədər baş verə bilər. Ondan bir il sonra birinci Türk Qurultayının 100 illiyi tamam olacaq. Türk dünyasının ortaq əlifbası layihəsini 2026-cı ilə qədər başa çatdırmağı nəzərdə tuturuq.

“Tarix bizim üzərimizə bu məsuliyyəti qoyub və daha qətiyyətli olmalıyıq. Hazırda türk dövlətləri arasında yaxınlaşma var. Ortaq türk əlifbası yaradaq və bununla da adlarımızı tarixə yazaq”, – deyə Türk Dilçilik Cəmiyyətinin rəhbəri əlavə edib.

***

2022-ci ildə Qazaxıstanın Nur-Sultan şəhərində Beynəlxalq Türk Akademiyası Elmi Şurasının V iclasında Türk dünyasının ümumi dərslikləri – “Ümumi türk tarixi”, “Ümumi türk ədəbiyyatı” və “Türk dünyasının coğrafiyası” kitabları haqqında qərar qəbul olunub. Qardaş ölkələr arasında təhsil sahəsində əməkdaşlığın inkişafına yönəlmiş bu dərsliklər Türk Dövlətləri Təşkilatının zirvə görüşündə verilən tapşırıqlara uyğun olaraq hazırlanıb.

Bu barədə iclasda çıxışı zamanı elm və təhsil naziri Emin Əmrullayev məlumat verib. O qeyd edib ki, 2021-ci ildə İstanbulda Elmi Şuranın IV iclasında Türkiyənin təşəbbüsü ilə dərslik mətnlərinin təsdiqi ilə bağlı ekspertlərin iclası olub və bu toplantıda sözügedən hər üç dərsliyin mətnləri təsdiq edilib.

Nazir bildirib ki, XV əsrə qədər dövrü əks etdirən “Ümumi türk tarixi” dərsliyi yeddi bölmədən ibarətdir və türk xalqlarının tarixini müfəssəl şəkildə ortaya qoyur. “Türk dünyasının coğrafiyası” dərsliyinin məzmunu bütövlükdə Türk dünyasının coğrafi mənzərəsinin formalaşdırılmasına, türklərin coğrafi anlayış və ideyalarının, eləcə də müstəqil türk ölkələrinin coğrafiyasının öyrənilməsinə yönəlib. “Ümumi türk ədəbiyyatı” dərsliyi şagirdlərdə milli ədəbiyyat tarixinə əsaslanan ümumi türk ədəbiyyatı və mədəni dəyərlər haqqında təsəvvür yaratmaq məqsədi daşıyır.

Ötən ildən Azərbaycan, Qazaxıstan və Türkiyədə 8-ci sinif şagirdləri üçün “Ümumi türk tarixi”nin seçmə proqram kimi tədris olunduğunu deyən Emin Əmrullayev əlavə edib ki, 2024–2025-ci tədris ilində Azərbaycan məktəblərində şagirdlərə “Ümumi türk ədəbiyyatı” və “Ümumi türk coğrafiyası” kitabları tədris olunacaq.

Türk Dünyası Ortaq Əlifba Komissiyasının üçüncü iclası sentyabrın 10-da işini davam etdirib.

# Şirvan ədəbi mühitinin Nasehi



XIX əsrin ikinci yarısında Şirvan ədəbi mühitinin tanınmış imzaları arasında görkəmli şair Ağaəli bəy Naseh də olub. Şair Şamaxıda fəaliyyət göstərən “Beytüs-səfa” ədəbi məclisində fəal iştirak edib, dövrünün tanınmış şair, mütəfəkkir və maarifçiləri ilə dostluq münasibətləri qurub.

Ağaəli bəy Hacı Məhəmməd oğlu Əfəndizadə 10 sentyabr 1856-cı ildə şairlər yurdu Şamaxıda anadan olub. İlk təhsilini “Üsuli-cədid” (yeni üsullu) məktəbində alır, fars və ərəb dillərini öyrənir. Sonra şəhər məktəbində təhsilini davam etdirir və rus dilini də yaxşı öyrənməyə başlayır. Qəflətən atası vəfat edir. Ehtiyac üzündən təhsilini davam etdirə bilmir. Bir müddət Kürdəmirdə, sonralar isə Şamaxıda məhkəmə dilmancı vəzifəsində çalışır. Eyni zamanda mütaliəsini artırır, xarici dil bilgilərini dərinləşdirir. Beləliklə, məhkəmədə katib vəzifəsinə irəli çəkilir.

Ağaəli bəy Naseh (naseh – nəsihət verən, öyüdçü) erkən yaşlarından poeziyaya maraq göstərir. Doqquz yaşında ikən nəzmlə məktub yazır. Görkəmli maarifçi Camo Cəbrayılbəyli “Xatirələrim” kitabında ondan bəhs edərək yazır: “Ərəb və farsca biliyi o dərəcədə idi ki, istər ərəbcə, istərsə də farsca kitablara göz gəzdirib hekayə kimi nəql edərdi. Şeirlərini Sabir, Səhhət, Tərrah, Hacı İsmayıl Veysov və yaxın qohumları şeir məclislərində oxuyurdu. Firidun bəy Köçərli ilə yazışaraq öz əsərlərini ona göndərirdi. Əvvəl-əvvəl Köçərliyə kim olduğunu söyləmir. Nasehin şeirləri haqqında onun rəyini soruşur. Köçərlinin məktubunun birində “Nasehin şeirləri filhəqiqət qüvvətlidir və xoşuma gəldi” yazmasını şəxsən özüm 1912-ci ildə oxumuşam. Səhhət, Sabir, Tərrah da öz şeirlərini Köçərliyə Naseh vasitəsilə göndərir. Ancaq çox utancaq və başıaşağı bir adam olduğu üçün yazdıqlarını hələ-hələ meydana çıxarmazdı. Yalnız ən yaxın adamlar üçün oxuyardı...”.

1903-cü ildə F.Köçərlinin “Azərbaycan türklərinin ədəbiyyatı” adlı kitabı Tiflisdə nəşr olunur. Kitab ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanır. “Tiflisski listok” qəzetində kitabla bağlı yazı dərc edilir. Firidun bəy bir çox tanınmış şairlərin əlyazmalarını alır. Şamaxıdan Ağaəli bəy Əfəndizadə Şirvan şairlərinin xeyli əlyazma şeirini ona göndərir. Firidun bəy həmin şeirlər içərisindən ən çox Nasehin qəzəllərini bəyənir. Sonra Ağaəli bəyə bir məktub yazır. Rica edir ki, mümkünsə yeni kitabına daxil etmək üçün “Naseh” təxəllüslü şairin qəzəllərindən bir neçəsini də göndərsin. Firidun bəy bir neçə gündən sonra Abbas Səhhətdən bir məktub alır. Səhhət yazır ki, şeirlərini “Naseh” təxəllüsü ilə sizə göndərən şair Ağaəli Əfəndizadədir. O, utancaq və təvazökar olduğu üçün sizə özü barədə məlumat verməyib.

Sonralar F.Köçərli “Azərbaycan ədəbiyyatı” əsərinin “Şirvan şairləri” fəslində Ağaəli bəy Nasehi hörmətlə yad edir: “Ağaəli bəy Nasehin şeirləri qayət dərəcədə gözəldir. O şəxsin özü isə farsca, rusca savadlı bir şəxsdir. Hətta ərəbcəni də yaxşı bilir. Xüsusən Ağaəli bəy Nasehin haqqı bizim boynumuzda artıq dərəcədədir. Şamaxı şüərasının tərcümeyi-hallarına dair bir çox məlumat bizə cəm edib göndərmişdir. Bu barədə ol cənaba səmimi-qəlbdən razılıq izhar edir, cənabi-həqqdən xoşbəxtlik və tul ömür mərhəmət olmasını təmənna edirik”.

Naseh gənc ikən Şamaxıdakı “Beytüs-səfa” şairlər məclisinin fəal iştirakçısı olur. Məhəmməd Səfa, Ələkbər Qafil, Qafar Raqib, Molla Ağa Bixud, Ağababa Zühuri, Mirzə Mahmud Zui, Mirzə Məhəmmədhəsən Nalə, Salik Şirvani kimi klassik üslubda yazan şairlərlə münasibətlər qurur. Ən yaxın dostları isə Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Məhəmməd Tərrah və Məhəmməd Hadi olub. Məclislərdə oxunan şeirlərə ən düzgün qiyməti Naseh verdiyi üçün dostları onu öz aralarında “Mizanüşşüəra” (şairlərə qiymət verən ən düzgün tərəzi) adlandırırlar.

Araşdırmalarda göstərilir ki, Ağaəli bəy Naseh Seyid Əzim Şirvanidən sonra Şamaxıda şairlər məclisinin rəhbəri olur. Onun məsləhəti ilə Abbas Səhhət rus dilini öyrənməyə səy göstərir. Rus dilində aydın olmayan cümlələr və kəlmələrin izahı haqqında Nasehə müraciət edir. O isə hər bir sözün həqiqi və məcazi mənasını cümlə içərisində konkret misalla izah edir. Çox sonra Abbas Səhhət də bu yaxşılıqları unutmur. 1912-ci ildə məslək dostuna “Naseh” adlı gözəl bir şeir həsr edir...

Ağaəli bəy Nasehin günümüzə qədər gəlib çıxan əsərlərinin içərisində Xurşidbanu Natəvanın eyniadlı məşhur qəzəlinə nəzirə olaraq yazdığı “Ölürəm” rədifli qəzəli diqqəti cəlb edir:

*Varımdı sinədə dərdü qəmi-nihan, ölürəm,*
*Bu sirri eyləmədim kimsəyə bəyan, ölürəm.*

*Bacardığımca qəmi-eşqi gizlədim, axır*
*Kəsildi taqətü səbrü qərari-can, ölürəm.*

*Açılmamış gül idim gülşəni-nəzakətdə,*
*Bahari-ömrümü eşq eylədi xəzan, ölürəm.*

*Ümid idim çəkərəm dərdi-eşqi Nasehtək,*
*Qırıldı rişteyi-ümmid nagəhan, ölürəm.*

Naseh uzun müddət Şamaxı divanxanasında katib işləyib. Ancaq aldığı məvacib altınəfərlik ailəni dolandırmaq üçün yetmədiyinə görə həm də həbsxanada mirzəliklə məşğul olub.

1911-ci ildə Jurpanski adlı rus məmuru Şamaxıya qəza rəisi təyin olunur. Onun divanxana rəisi Kolomentyev azərbaycanlıları çox incidir və vəzifələrindən uzaqlaşdırır. Rus məmurlarından çox haqsızlıqlar görən 55 yaşlı Naseh də işdən çıxarılır. Şair bir müxəmməsində dövrün haqsızlıqlarını və dünya işlərini nadanların idarə etdiyini yana-yana qələmə alır:

*Basıb ələmləri bidadü ədalət yoxdur,*
*Qövllər kizb, əməl ləğv, sədaqət yoxdur,*
*Həsədü büğzdən özgə dəxi adət yoxdur,*
*Hiç bir kəsdə vəfa, sidqü dəyanət yoxdur,*
*Nasəza föhşü iza, qeybətü böhtan görürəm...*

Camo Cəbrayılbəyli xatirələr kitabında yazır ki, Naseh bir dəfə işdən çox əsəbi gəldi. Bildirdi ki, bu qulluq adamı lap inək edərmiş. Vicdansız Kolomentyevin üzünə tüpürüb istefa ərizəmi verdim. Həqarətdən qurtardım, başqa çarəm yox idi.

Çox keçmir, Naseh xəstələnir və yatağa düşür, 1914-cü ildə vəfat edir.

Ağaəli bəy Nasehin günümüzə gəlib çıxan bir neçə şeir, qəzəl və müxəmməsləri var. Əsərlərinin bir qismi 1902-ci ildə Şamaxı zəlzələsində və 1918-ci ildə ermənilər Şamaxını yandırıb talan edəndə it-bata düşüb.

**Savalan Fərəcov**

# Coğrafiya İnstitutunda təcrübə keçən almaniyalı tələbələr qoruqlarda olublar

Almaniyanın Yustus Libix Universitetinin (Gissen şəhəri) iki tələbəsi Elm və Təhsil Nazirliyinin akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunda təcrübə keçib. Onlar təcrübə müddətində Samur-Yalama Milli Parkı, Hirkan Milli Parkı, Lənkəran Tarix-Diyarşünaslıq Muzeyi və digər məkanlarda ekskursiyada olublar.

Tələbələrin gəzib gördükləri son məkanlar Palçıq Vulkanları Dövlət Təbiət Qoruğu, Qobustan Milli Tarix-Bədii Qoruğu və Böyükşor gölü olub.

Coğrafiya İnstitutunun kiçik elmi işçisi Bəyimxanım Hüseynovanın və elmi işçi Nicat İmamverdiyevin müşayiəti ilə gerçəkləşən ekskursiya zamanı Azərbaycanın ən böyük Torağay palçıq vulkanı və qoruq ərazisində yerləşən aktiv kiçik palçıq vulkanları barədə məlumat verilib. Qoruq bələdçisi tələbələrə palçıq vulkanlarının müalicə turizmi məqsədilə istifadə olunmasından da söz açıb.

Almaniyadan gələn tələbələr Qobustan Milli Tarix-Bədii Qoruğu, ərazidəki qədim qayaüstü rəsmlər, “Qavaldaş” və digər tarixi nümunələrlə də maraqla tanış olublar.

Abşeron yarımadasındakı ən böyük su səthi olan Böyükşor gölünə baş çəkən qonaqlara gölün ekoloji vəziyyəti, bərpası və mühafizəsi sahəsində görülən işlər haqqında geniş məlumat verilib.



## Xatirə təqvimi — 12 – 14 sentyabr

### Azərbaycan

**12 sentyabr 1887** – Görkəmli yazıçı Yusif Vəzir Çəmənzəminli (1887 – 3.1.1943) Şuşada doğulub. Azərbaycan Xalq Cümhuriyyətinin İstanbulda səfiri olub, sonra mühacirətdə yaşayıb, 1926-cı ildə Azərbaycana qayıdıb. 1940-cı ildə həbs olunub, Rusiyanın Nijni Novqorod vilayətində həbs düşərgəsində vəfat edib. “İki od arasında” (“Qan içində”) tarixi romanının, “Qızlar bulağı”, “Bir cavanın dəftəri” və s. əsərlərin müəllifidir.

**12 sentyabr 1921** – Şair, dramaturq Novruz Gəncəli (Novruz İsmayıl oğlu Sadıqov; 1921 – 19.10.1995) anadan olub. C.Bayronun şeirlərini, B.Brextin “Kuraj ana və onun uşaqları” pyesini Azərbaycan dilinə çevirib.

**12 sentyabr 1960** – Əməkdar artist Süleyman Məşədi İsmayıl oğlu Tağızadə (13.4.1909 – 1960) vəfat edib. Akademik Milli Dram Teatrının aktyoru olub, filmlərə çəkilib.

**12 sentyabr 2001** – Yazıçı, tərcüməçi Manaf Fərəc oğlu Süleymanov (3.3.1912 – 2001) vəfat edib. Köhnə Bakı haqqında “Eşitdiklərim, oxuduqlarım və gördüklərim” adlı tarixi-ensiklopedik kitabın, “Dalğalar qoynunda”, “Fırtına”, “Zirvələr”, “Yerin sirri” və s. romanların müəllifidir.

**12 sentyabr 2004** – Əməkdar mədəniyyət işçisi Turan Cavid (Turan Hüseyn Cavid qızı Rasizadə; 2.10.1923 – 2004) vəfat edib. C.Cabbarlı adına Dövlət Teatr Muzeyinin, H.Cavidin Bakıdakı ev-muzeyinin direktoru işləyib.

**13 sentyabr 1893** – Əməkdar artist, opera müğənnisi Əli Əbdül oğlu Zülalov (1893–1963) Şuşada anadan olub.

**13 sentyabr 1933** – Görkəmli bəstəkar, Azərbaycanın və SSRİ-nin Xalq artisti, akademik, Dövlət mükafatı laureatı Arif Cahangir oğlu Məlikov (1933 – 9.5.2019) Bakıda doğulub. “Məhəbbət əfsanəsi” baleti, “Dalğalar” operettası, “Füzuli”, “Vətən”, “Metamorfozlar” simfonik poemaları, 8 simfoniya və s. əsərlərin müəllifidir. Filmlərə (“Sehrli xalat”, “Axırıncı aşırım”), tamaşalara musiqi yazıb. Bakı Musiqi Akademiyasının professoru olub.

**13 sentyabr 1969** – Xalq rəssamı İsmayıl Hüseyn oğlu Axundov (15.4.1907 – 1969) vəfat edib. Azərbaycan Rəssamlar İttifaqının ilk sədri olub.

**13 sentyabr 2023** – Əməkdar mədəniyyət işçisi, tanınmış aşıq Abbas Musaxan oğlu Güləliyev (15.3.1954 – 2023) vəfat edib.

**14 sentyabr 1880** – Yazıçı İbrahim Mehdi bəy oğlu Musabəyov (1880–1942) Qəbələdə anadan olub. Yazıçının “Neft və milyonlar səltənətində” povesti əsasında 1916-cı ildə Azərbaycanın ilk tammetrajlı bədii filmi çəkilib. Qazaxıstanın Karaqanda şəhərində sürgündə vəfat edib.

**14 sentyabr 1911** – Şair, dramaturq, ədəbiyyatşünas Müzəffər Qasım oğlu Nəsirli (1911–1980) Naxçıvan MR Şahbuz rayonu Sələsüz kəndində anadan olub.

**14 sentyabr 1939** – Yazıçı-dramaturq Aslan Qəhrəman oğlu Qəhrəmanlı (1939 – 19.1.2014) Ağstafa rayonunun Yenigün kəndində doğulub. Televiziyada ekranlaşdırılmış “Səni axtarıram”, “Bağışla” və “Səndən xəbərsiz” pyeslərinin, povest və hekayələrin müəllifidir.

**14 sentyabr 1939** – Əməkdar artist, vokal ifaçısı İsmayıl Sadıq oğlu Ələkbərov (1939–2021) Bakıda doğulub. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının muğam bölməsinin solisti olub.

**14 sentyabr 1941** – Əməkdar incəsənət xadimi, kinorejissor Teymur Bəkir oğlu Bəkirzadə (1941 – 21.9.1996) Bakıda doğulub. “Azərbaycanfilm” kinostudiyasında sənədli və bədii filmlərə (“Rəqiblər”, “Yol əhvalatı”) quruluş verib.

**14 sentyabr 1949** – Əməkdar artist Sona Qədir qızı Mirzəyeva (1949–1985) Bakıda doğulub. İrəvan Dövlət Azərbaycan, Naxçıvan teatrlarının aktrisası olub.

**14 sentyabr 1973** – Bakıda Azərbaycanın böyük mütəfəkkir şairi İmadəddin Nəsiminin (1369-1417) anadan olmasının 600 illiyinə həsr edilmiş təntənəli mərasim keçirilib. Yubileyə dünyanın 30-dək ölkəsindən qonaqlar qatılıb. Respublikanın rəhbəri – Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev mərasimdə çıxış edib.

**14 sentyabr 1989** – Azərbaycan Nazirlər Sovetinin müvafiq qərarı ilə Naxçıvan Dövlət Kukla Teatrı yaradılıb. 2004-cü ildən Məhəmməd Tağı Sidqinin adını daşıyır.

**14 sentyabr 1992** – Xalq şairi Hüseyn Arif (Hüseynzadə Hüseyn Camal oğlu; 15.6.1924 – 1992) vəfat edib. Azərbaycan Aşıqlar Birliyinin sədri olub.

**14 sentyabr 1992** – Əməkdar artist, vokal ifaçısı (bariton) Əli Həsən oğlu Haqverdiyev (29.7.1939 –1992) vəfat edib. Azərbaycan Opera və Balet Teatrının solisti olub, filmlərdə çəkilib.

**14 sentyabr 2017** – Əməkdar incəsənət xadimi, ustad saz ifaçısı, aşıq Ədalət Məmmədəli oğlu Nəsibov (27.1.1939 – 2017) vəfat edib.

**14 sentyabr 2021** – Əməkdar artist, tanınmış müğənni, bəstəkar Yaqub Zurufçu (8.4.1956 – 2021) vəfat edib.

### Dünya

**12 sentyabr 1921** – Polyak satirik yazıçısı Stanislav Lem (Stanislaw Lem; 1921–2006) anadan olub. Əsərləri: “Solyaris”, “Səmanın səsi”, “Yerdə sülh”, “Aldebarandan müdaxilə” və s.

**13 sentyabr 1874** – Avstriya bəstəkarı Arnold Şönberq (Arnold Franz Walter Schoenberg; 1874–1951) anadan olub. Musiqidə ekspressionizmin nümayəndəsi, “Moisey və Aaron” operası, “İntizar” monodramı və s. əsərlərin müəllifidir.

**13 sentyabr 1894** – İngilis yazıçısı və dramaturqu Con Boynton Pristli (John Boynton Priestley; 1894–1984) anadan olub. Əsərləri: “Mehriban dostlar”, “Mələk küçəsi”, “Cənnət guşəsi” (pyeslər), “Qretlidə qaranlıq” (roman) və s.

**13 sentyabr 1905** – Fransız əsilli Amerika aktrisası, “Oskar” laureatı Klodet Kolber (Claudette Colbert – Lily Claudette Chauchoin; 1905–1996) anadan olub.

**13 sentyabr 1924** – Fransa bəstəkarı Moris Jarr (Maurice Jarre; 1924–2009) anadan olub. 100-dən çox filmə musiqi yazıb, 3 dəfə “Oskar” mükafatına layiq görülüb.

**14 sentyabr 1321** – İtalyan şairi Dante Aligyeri (Dante Alighieri; 15.5.1265 – 1321) vəfat edib. İntibah ədəbiyyatının şah əsərlərindən olan “İlahi komediya” poemasının müəllifidir. Axirət dünyasına səyahəti təsvir edən poema üç hissədən (“Cəhənnəm”, “Əraf”, “Cənnət”) ibarətdir.

**14 sentyabr 1618** – Holland əsilli ingilis rəssamı Piter Leli (Peter Lely – Pieter van der Faes; 1618–1680) anadan olub.

**14 sentyabr 1898** – Rus aktyoru, SSRİ Xalq artisti Mark Prudkin (1898–1994) anadan olub. Filmləri: “Karamazov qardaşları”, “On iki stul” (1976) və s.

**Hazırladı: V.Orxan**

# Peşəkar tərcüməçi mütəxəssislərin seçimi

Dövlət Tərcümə Mərkəzi ölkədə dil və tərcümə işinin təkmilləşdirilməsi, peşəkar mütəxəssislərin müəyyən olunması məqsədilə keçirdiyi seçim turlarının növbəti mərhələsini davam etdirir.

Mərkəzdən bildirilib ki, turlar ictimai-siyasi, elmi-texniki, maliyyə, iqtisadiyyat, humanitar, media, tibb, hüquq sahəsi və dillər üzrə ixtisaslaşmış tərcümə mütəxəssislərinin peşə qabiliyyətinin mərhələlər üzrə yoxlanılması və sertifikatlaşdırılması əsasında aparılır.

Turlarda iştirak üçün sənədləri (şəxsiyyət vəsiqəsinin surəti, CV) oktyabrın 31-dək mərkəzin info@aztc.gov.az ünvanına göndərə, yaxud kağız formatında Bakı şəhəri, Nərimanov rayonu Şahin Mustafayev küçəsi, 27/121A; AZ1033 ünvanına təqdim edə bilərlər.

Mərkəzin elektron poçt ünvanına göndərilən sənədlərin “mövzu” bölümündə dil və tərcümə sahəsi qeyd edilməlidir. Turlarda iştirak ödənişlidir.

Əlavə məlumat üçün bu nömrəyə zəng etmək olar: (+994 12) 566 80 27 (daxili nömrə: 123).

№67 (2132)
11 sentyabr 2024
www.medeniyyet.az

# 81-ci Venesiya kinofestivalının mükafatçıları

## "Şir"lər kimlərə qismət oldu?



30 avqust – 7 sentyabr tarixlərində keçirilən 81-ci Venesiya Beynəlxalq Film Festivalının əsas mükafatını rejissor Pedro Almodovar qazanıb. "Ən yaxşı film" nominasiyasında "Qızıl şir" mükafatı ispan rejissorun ilk ingilisdilli ekran işi olan "Qonşu otaq" filminə verilib.

Filmdə baş rollarda Tilda Svinton və Culian Mur çəkiliblər. Süjetə görə, İnqrid və Marta cavan vaxtı yaxın dost olublar. Sonradan onların yolları ayrılıb: biri məşhur yazıçı, digəri isə müharibə jurnalisti olub. Uzun illər sonra qadınlar kədərli şəraitdə yenidən bir araya gəlirlər.

Festivalın əsas müsabiqə proqramında ümumilikdə 21 film nümayiş olunub. Filmləri fransız aktrisa İzabel Uppertin (Isabelle Huppert) rəhbərlik etdiyi münsiflər heyəti dəyərləndirib.

"Gümüş şir" (ən yaxşı rejissor işi) mükafatına italyan rejissor Mauro Delperonun "Dağ gəlini" filmi layiq görülüb.

Ən yaxşı ssenariyə görə braziliyalı rejissor Valter Sallesin "Mən hələ burdayam" filmi (ssenari müəllifləri Murilo Hauzer və Eytor Loreqa) təltif olunub.

Ən yaxşı aktyor fransız sənətçi Vensan Lindon ("Sakit yuxu" filmi, rejissorlar Delfin və Müriel Kulenlər), ən yaxşı aktrisa isə ABŞ-Avstraliya kinoulduzu Nikol Kidman ("Qızcığaz" ("Babygirl") filmi, rejissor Halina Reyn) seçilib.



Hollivud ulduzu Ancelina Colinin baş rolu ifa etdiyi "Mariya" filmi festivalda seyrçilər tərəfindən 8 dəqiqə ayaq üstə alqışlansa da, münsiflərin diqqətini çəkməyib. Ekran əsəri məşhur opera müğənnisi Mariya Kallasın həyatından bəhs edir. Filmdə Ancelina Colinin tərəf-müqabili tanınmış türk aktyoru Haluk Bilginer (yunan milyarder Aristotel Onassis rolunda) olub.

"Qızıl şir" uğrunda yarışmanın favoritləri arasında görünən Todd Fillipsin "Joker 2: İki nəfər üçün dəlilik" musiqili-psixoloji trilleri (amerikalı rejissorun 2019-cu ildə ekrana çıxan "Joker" filminin davamı) də mükafatsız qalıb.

Festivalın əsas müsabiqə proqramında yer alan gürcü rejissor Dea Kulumbeqaşvilinin "Aprel" filmi isə jürinin xüsusi mükafatına layiq görülüb.

Kinematoqrafiyaya töhfələrinə görə fəxri "Qızıl şir" mükafatı ilə isə bu il amerikalı aktrisa Siqurni Uiver və avstraliyalı rejissor Piter Uir təltif olunublar.



Festivalın əsas müsabiqə proqramından əlavə, ənənəvi "Horizontlar" proqramında da filmlər mükafatlandırılıb. Mükafatçılar arasında türkiyəli rejissor Murad Firatoğlu da var.

**V.Kamal**

# Türkiyədə kinoya nə qədər dövlət vəsaiti ayrılır?

Ötən il Türkiyədə sənədli, bədii, qısametrajlı və cizgi filmlərinin istehsalı, eləcə də ssenari və dialoq yazılışı, yerli film nümayişi, ortaq istehsal kimi sahələrə ümumilikdə 145 milyon lirə dövlət dəstəyi verilib.

2024-cü ildə isə dövlətin kino sənayesinə verdiyi dəstək təxminən iki dəfə artaraq 284 milyon lirəyə (təxminən 14,2 milyon AZN) çatıb.

Bu barədə Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin məlumatında bildirilib.

Məlumatda qeyd edilib ki, kino sektoru nümayəndələrindən ibarət Kino Dəstək Şurasının müəyyən etdiyi bu vəsaitin 97,8 milyon lirəsi "Uzun metrajlı", "Birgə istehsal" və "Çəkiliş sonrası" (postprodakşn) istiqamətləri üzrə ümumilikdə 22 layihəyə ayrılıb. Bu layihələrin 5-i tammetrajlı bədii film, 3-ü birgə istehsal üçün nəzərdə tutulub.

# 60 il "KVN"-in siması olmuşdu...

Keçmiş SSRİ və indiki postsovet teleməkanı üzrə ən məşhur aparıcılardan biri sayılan, "KVN"-in (Şən və Hazırcavablar Klubu – ŞHK) 60 ilə yaxın əsas siması olmuş Aleksandr Maslyakov sentyabrın 8-də, ömrünün 83-cü ilində vəfat edib.



"Maslyakov ŞHK hərəkatının bütün iştirakçıları və milyonlarla tamaşaçı üçün əfsanə olub və əbədi olaraq belə qalacaq. O, 1964-cü ildən ŞHK-nın aparıcısı olub, Rusiyada və xaricdə yumor, satira simvoluna çevrilib" – bu sözlər klubun sosial şəbəkə səhifəsində yayılan başsağlığı paylaşımında yer alıb.

Aleksandr Maslyakov 1941-ci il noyabrın 24-də anadan olub. 1964-cü ildə tələbə ikən Mərkəzi Televiziyada (Gənclər üçün proqram baş redaksiyası) işləməyə başlayıb. O, "KVN" televiziya verilişindən savayı Mərkəzi Televiziyada "Şən uşaqlar", "Haydı, qızlar", "Nə? Harada? Nə vaxt?", "12-ci mərtəbə" və s. populyar verilişlərin aparıcısı olub.

1994-cü ildə "Rusiyanın Əməkdar incəsənət xadimi" adına layiq görülən A.Maslyakov "AMiK" ("Aleksandr Maslyakov və kompaniya") televiziya yaradıcılıq birliyinin təsisçisi və əsas səhmdarı idi. 2023-cü ildə səhhətindəki problemlərlə bağlı televiziyadan faktiki uzaqlaşmışdı.

# Dünyada hər beş nəfərdən ikisinin ana dilində oxumaq imkanı yoxdur

Sentyabrın 8-i Beynəlxalq Savadlılıq Günü idi. UNESCO tərəfindən 1967-ci ildən qeyd olunan bu günün məqsədi savadlılığın insanlar, icmalar və ümumilikdə cəmiyyət üçün faydasına diqqəti cəlb etməkdir.

Bu il Beynəlxalq Savadlılıq Günü "Çoxdilli təhsilin təşviqi: qarşılıqlı anlaşma və sülh üçün savadlılıq" devizi altında qeyd olunub.

UNESCO-nun baş direktoru Odre Azulenin bu gün münasibətilə müraciətində qeyd olunur ki, uşaqlar üçün oxumağı və yazmağı ana dilində öyrənmək daha asandır. Lakin bu gün dünyada insanların 40 faizinin danışdığı və ya başa düşdüyü dildə təhsil almaq imkanı yoxdur. "Afrikada hər 10 uşaqdan 8-i məktəb təhsilinə evdə danışdığı dildən fərqli bir dildə başlayır. Bu gün inkişaf etməkdə olan ölkələrdə on



yaşınadək hər dörd uşaqdan üçü sadə mətni oxuyub anlamağı bilmir və dünyada böyüklər arasında 754 milyon nəfər hələ də savadsızdır, onların üçdə ikisi qadınlardır", – deyə müraciətdə diqqətə çatdırılır.

Sentyabrın 9-da isə BMT-nin təsis etdiyi Təhsilin Hücumlardan Müdafiəsi Beynəlxalq Günü qeyd edilib. Bu günlə də bağlı baş katib Antonio Quterreşin müraciəti yayılıb.

Müraciətdə bildirilir ki, təhsil insan hüquq və azadlıqlarının həyata keçirilməsinin vacib təməlidir: "Təhsil vasitəsilə əldə edilən bilik, bacarıq və dəstək ilə gələcək nəsillər böhranlardan xilas olur və dünyanı davamlı gələcəyə doğru aparır. Bu, xüsusilə həssas qruplar, o cümlədən qızlar, miqrantlar, qaçqınlar, əlillər üçün aktualdır. Məktəblər uşaqlar, tələbələr və təhsil işçiləri üçün təhlükəsiz sığınacaq olmalıdır. Bununla belə, çox vaxt şagirdlər və onların təhsil aldıqları məkanlar münaqişədən təsirlənmiş kontekstlərdə ya birbaşa hədəfə, ya da girov obyektinə çevrilirlər".

Müraciətdə məktəb yaşında uşaqlara qarşı zorakılıqdan ən çox təsirlənən ölkələr kimi Konqo Demokratik Respublikası, Myanma, Somali, Nigeriya və Sudan qeyd olunub.

# Tarixdə bu gün



## Olaylar, faktlar (12 – 13 sentyabr)

### Xronoqraf

### 301 il əvvəl...



**12 sentyabr 1723-cü ildə** çar Rusiyası ilə Səfəvi dövləti arasında Peterburq müqaviləsi imzalanıb. Müqaviləyə əsasən, Azərbaycanın Xəzəryanı əraziləri (Dərbənddən Ənzəliyədək) Rusiyanın nəzarətinə verilib. Həmin dövrdə Osmanlı ilə müharibə aparan Səfəvi dövləti üçün bu saziş taktiki səciyyə daşıyırdı. Lakin Rusiya ona umduğu dəstəyi vermədi, əksinə, 1724-cü ildə Osmanlı ilə də müqavilə bağladı. Səfəvi dövləti Rusiyanın nəzarətinə verdiyi torpaqları 1732–1735-ci illərdə geri qaytara bildi.

### 223 il əvvəl...

**12 sentyabr 1801-ci ildə** çar I Aleksandr Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsi haqqında manifest imzalayıb. Manifestlə Azərbaycanın tarixi torpaqları olan Şəmsəddil, Borçalı əraziləri də Rusiyanın tərkibinə qatılıb.

### 198 il əvvəl...

**13 sentyabr 1826-cı ildə** İkinci Rusiya-İran müharibəsinin (1826–1828) gedişinə əhəmiyyətli təsir edən Gəncə döyüşü olub. İran qoşunlarının ağır məğlubiyyətə uğraması müharibənin taleyini faktiki olaraq həll edib. Bundan əvvəl (3 sentyabr) şahzadə Abbas Mirzənin qoşunları Şəmkir döyüşündə də ruslara məğlub olmuşdu. Ardınca Rusiya qoşunlarının Naxçıvan və İrəvan xanlıqları üzərinə hücumları başlanıb.

### 44 il əvvəl...

**12 sentyabr 1980-ci ildə** Türkiyədə dövlət çevrilişi olub, general Kənan Evrenin başçılıq etdiyi hərbçilər hakimiyyəti ələ alıblar. Dövlət çevrilişinin səbəbləri sosial-iqtisadi böhran, siyasi qüvvələrin, xüsusilə də sol-sağ qarşıdurmasının ölkəni vətəndaş müharibəsinə sürükləməsi idi. Çevrilişdən sonra ölkədə bütün partiyaların, müstəqil medianın



fəaliyyəti dayandırılıb. 1982-ci ildə referendum yolu ilə ölkənin yeni Ana Yasası qəbul edildi, Kənan Evren prezident seçildi. Nyu-Yorkda Dünya Bankında çalışan Turqut Özal isə baş nazir vəzifəsinə dəvət olundu.

### 27 il əvvəl...

**13 sentyabr 1997-ci ildə** Prezident Heydər Əliyev Azərbaycan Respublikasında gənc istedadlar üçün xüsusi aylıq təqaüdün təsis edilməsi barədə fərman imzalayıb. Fərmana əsasən, Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı" da təsis olunub.

**Hazırladı: V.Orxan**

# Osloda Azərbaycan musiqisi axşamı

Oslo şəhərində Norveç Televiziya və Radio Simfonik Orkestrinin zalında Azərbaycan musiqisinə həsr olunmuş kamera konserti keçirilib.



Tədbir həmyerlimiz, orkestrin skripka ifaçısı Narın Musayeva Folgerö və onun musiqiçi həmkarlarının təşkilatçılığı ilə reallaşıb.

Konsertdə Ü.Hacıbəylinin "Arazbarı", "Aşıqsayağı", Q.Qarayevin simli kvarteti, skripka və fortepiano üçün sonatası, "İldırımlı yollarla" baletindən miniatürlər, "Don Kixot" simfonik qravürlərindən "Səyahət", F.Əmirovun "Muğam-poema", "Məhəbbət rəqsi", həmçinin M.Haşımov və A.Əliyevin solo skripka üçün işləməsi olan "Bayatı-Şiraz" muğamı ifa olunub.

Yerli sənətsevərlər Azərbaycan musiqisi nümunələrini maraqla dinləyiblər.

# Ölkəmiz Haaqada "Səfirliklər Festivalı"nda təmsil olunub

Niderlandın Haaqa şəhərində ənənəvi "Səfirliklər Festivalı" keçirilib. Bu il 12-cisi təşkil olunan festivalda Azərbaycan da daxil olmaqla 50 ölkə iştirak edib. Səfirliklərin stendlərində ölkələrin mədəniyyəti, milli mətbəxi və rəqsləri nümayiş olunub.




Azərbaycanın təqdimatı festival iştirakçılarının diqqətini cəlb edib. Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə köməyi və Xan Şuşinksi Fondunun təşkilatçılığı ilə festivalda xalqımızın milli mənəvi sərvəti olan və 2008-ci ildə UNESCO-nun Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilən muğam musiqisi təqdim olunub.

Xanəndə Nisbət Sədrayeva tarzən Rüstəm Müslümov və kamançaçı Əməkdar artist Toğrul Əsədullayevin müşayiəti ilə muğam dəsgahlarını ifa edib. Musiqiçilərimizin ifası festival ziyarətçiləri tərəfindən alqışlarla qarşılanıb.

# Paralimpiadada Azərbaycan adına 11 medal

Avqustun 28-dən sentyabrın 8-dək Fransa paytaxtında keçirilən 2024-cü il Yay Paralimpiya Oyunları başa çatıb.



Azərbaycan paralimpiadada 7 növ üzrə 18 idmançı ilə təmsil olunub. İdmançılarımız Paris–2024 Yay Paralimpiya Oyunlarını 4 qızıl, 2 gümüş və 5 bürünc olmaqla 11 medalla başa vurub.

İmaməddin Xəlilov parataekvondo (70 kq), Səid Nəcəfzadə (T12 kateqoriyası) və Orxan Aslanov (T13 kateqoriyası) – hər ikisi uzunluğa tullanma üzrə qızıl, Lamiyə Vəliyeva qızıl (100 metr məsafəyə qaçış) və gümüş (400 metr məsafəyə qaçış) medal qazanıblar.

Bundan əlavə, Raman Saley 1 gümüş (100 metr məsafəyə arxasıüstə üzmə) və 2 bürünc (100 metr məsafəyə sərbəst və "butterfly" üsulla üzmə), Sabir Zeynalov (parataekvondo, 58 kq), Vəli İsrafilov (100 metr məsafəyə brass üsulu ilə üzmə), İlham Zəkiyev (paracüdo, +90 kq) bürünc medala sahib çıxıblar.

Medalların əyarı və sayına görə Azərbaycan 169 ölkə arasında 28-ci olub.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 2104
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641